**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT PROSESİNDƏ VƏKİL ARAŞDIRMASI: NƏZƏRİ ƏSASLARI, HÜQUQİ TƏMİNATI, KRİMİNALİSTİK ASPEKTLƏRİ

İxtisas: 5612.01 – "Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti"

Elm sahəsi: Hüquq

**İddiaçı: Fərdin Yaşar oğlu Xəlilov**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun "Cinayət hüququ və cinayət prosesi" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: Hüquq elmləri doktoru, professor
**Mirağa Əşrəf oğlu Cəfərquliyev**

Rəsmi opponentlər: Hüquq elmləri doktoru, professor
**Firuzə Məmməd qızı Abbasova**

Hüquq elmləri doktoru, professor
**Lətif Hüseyn oğlu Hüseynov**

Hüquq elmləri doktoru, professor
**Bəhram Səffan oğlu Zahidov**

Hüquq elmləri doktoru, professor
**Samir Əhməd oğlu Vəliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:
imza
Hüquq elmləri doktoru, dosent
**Rüstəmzadə Ayxan Xankişi oğlu**

Dissertasiya şurasının elmi katibi:
imza
Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Hüseynov Sahil Zahir oğlu**

Elmi seminarın sədri:
imza
Prof. Dr. Dr. h. c.
**Hakan Hakeri**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikasının 14 iyul 2000-ci ildə qəbul edilmiş və 1 sentyabr 2000-ci ildə qüvvəyə minmiş yeni Cinayət-Prosessual Məcəlləsi (bundan sonra – CPM) həm müstəqillikdən sonra həyata keçirilmiş məhkəmə-hüquq islahatlarının məntiqi nəticəsi kimi, həm də bundan sonra həyata keçiriləcək islahatlarının əsas istiqamətlərini müəyyən edən qanun kimi nəzərdən keçirilə bilər. Bu anlamda, yeni CPM-in qəbul edilməsi ilə bir çox yeni və mütərəqqi hüquq ideyaları normativ qaydada təsbit edilmiş oldu, eyni zamanda, yeni CPM bəzi hüquq institutları barədə ideyaların rüşeymlərini nəzərdə tutmaqla, cinayət-prosessual hüquq elmi qarşısında yeni vəzifələr müəyyən etdi. Qeyd etmək lazımdır ki, insan hüquq və azadlıqlarının prioriteti, cinayət mühakimə icraatının çəkişmə forması, xüsusi maraqların dövlət maraqlarından üstün tutulması və s. bu kimi qabaqcıl hüquq ideyalarını özündə birmənalı şəkildə əks etdirən yeni CPM-də indiyə kimi realizə mexanizmləri tam şəkildə işlənib hazırlanmamış, təkmilləşməyə, müəyyən hallarda ölkə Konstitusiyasına uyğunlaşdırılmaya ehtiyac duyan norma və hüquq institutları da mövcuddur. Fikrimizcə, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən mütəmadi olaraq cinayət-prosessual qanunvericiliyə edilən əlavə və dəyişikliklər, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən tez-tez CPM-in ayrı-ayrı maddələrinin Konstitusiyaya uyğunluğunun yoxlanılması və bəzən onlar arasında ziddiyyətin aşkar edilməsi söylənilən fikirləri bir daha təsdiq edir. Lakin qeyd etmək lazımdır ki, diqqət yetirilən hadisə daha çox obyektiv səbəblərlə bağlıdır, çünki Azərbaycan Respublikasının hazırda qüvvədə olan cinayət-prosessual qanunvericiliyinin ideya bazası müasir dünya, əsasən də Avropa standartları üzərində qurulsa da, normativ-texniki bazası, belə demək olarsa, sovet dövründən "miras" qalmışdır. Bu vəziyyət nəticəsində bir-biri ilə uyğun gəlməyən kateqoriyalar qarşılıqlı realizasiyanı təmin etmək əvəzinə, qarşılıqlı ziddiyyətlərə səbəb olur. Şübhəsiz, müasir dövrdə cinayət-prosessual hüquq elmi qarşısında duran əsas vəzifələrdən biri həmin ideyalara uyğun gələn, onların realizə

edilməsini təmin edən hüquqi-tənzimetmə mexanizmlərinin işlənib hazırlanmasıdır.

Vəkil araşdırması institutu da müstəqillikdən sonra milli hüquq sisteminə gətirilmiş yeni ideyalardan biridir. Müsbət haldır ki, Azərbaycan Respublikası vəkilin "müstəqil araşdırma aparmaq" hüququnu normativ qaydada birbaşa şəkildə təsbit etmiş yeganə MDB dövlətidir.[1] Digər MDB dövlətlərində vəkilin belə hüququnun yalnız dolayısı ilə təsbitindən bəhs etmək mümkündür.

Azərbaycan Respublikasının "Vəkillər və vəkillik fəaliyyəti haqqında" 28 dekabr 1999-cu il tarixli Qanunun (bundan sonra – "VVF haqqında" Qanun) 15-ci maddəsinin II hissəsində vəkilin müstəqil araşdırmalar aparmaq hüququ və onun bəzi vasitələri birbaşa təsbit edilmişdir. Bu ideya CPM-in də 92.9.5-ci, 92.9.9-cu, 143.3-cü və s. maddələrində özünün cinayət prosesindəki təzahür formasını tapmışdır. Lakin qeyd etmək lazımdır ki, istinad edilən maddədə vəkil-müdafiəçi tərəfindən sübutların Məcəllədə göstərilmiş qaydada toplanmalı olması barədə göstəriş olsa da, həmin qaydaların özü nə Məcəllədə, nə də "VVF haqqında" Qanunda təsbit edilmişdir, bu isə baxılan ideyaların deklarativ olaraq qalmasına, təcrübədə realizə edilməməsinə və dolayısı ilə, cinayət təqibinə məruz qalmış şəxslərin müdafiə hüquqlarının məhdudlaşdırılmasına səbəb olur.

Bundan başqa, nəzərə almaq lazımdır ki, göstərilən hüquqi yardımla əlaqədar sübutların toplanması təkcə müdafiəçi kimi işə buraxılmış vəkilin haqqı deyil, "VVF haqqında" Qanun bu hüququ bütün vəkillərə vermişdir, odur ki, cinayət prosesində nümayəndə qismində iştirak edən vəkillər də müdafiəçi kimi iştirak edən vəkillərdən az hüquqlara malik olmamalıdırlar. Xatırlatmaq yerinə düşər ki, CPM-in 102.6.4-cü maddəsi zərər çəkmiş şəxsin, mülki iddiaçı və mülki cavabdehin nümayəndəsinə də sübutlar təqdim etmək hüququ vermişdir.

Baxılan normalar, məntiqi olaraq, suallar yaradır: cinayət prosesində iştirak edən vəkillər göstərdikləri hüquqi yardımla əlaqədar olaraq sübutları hansı prosessual qaydada toplamalı,

---

[1] *Рагулин А.В.* Профессиональные права адвоката-защитника в Российской Федерации и зарубежных государствах. М.: Юрлитинформ, 2012, с. 143-251.

rəsmiləşdirməli, təqdim etməlidirlər və bu prosessual qayda cinayət-prosessual qanunvericilikdə hansı normativ-texniki vasitələrlə tənzim edilməlidir?

Hesab edirik ki, bu suallara indiyə kimi nəzəriyyədə və qanunvericilikdə, birmənalı olaraq, cavabların verilməməsi cinayət mühakimə icraatında vəkil araşdırmasının elmi tədqiqinin zəruriliyinə dair ən inandırıcı dəlildir.

Qeyd edilməlidir ki, post-sovet məkanında baxılan problem ötən əsrin 90-cı illərindən etibarən aktuallaşdığına görə, klassik sovet müəlliflərinin elmi əsərlərində araşdırılan mövzuya bir o qədər də yer verilmirdi. Axtarış tipli sovet cinayət prosesi konsepsiyası sistemində vəkillər, bir qayda olaraq, müdafiəçi kimi çıxış edirdi. Müdafiəçilər isə ibtidai istintaqın sonunda işə buraxılırdı və öz fəaliyyətlərini, əsasən, məhkəmədə həyata keçirirdilər. Odur ki, sovet dövründə müdafiəçinin sübutetmə fəaliyyəti yalnız ibtidai istintaq orqanı tərəfindən toplanmış və cinayət işinin materiallarına daxil edilmiş sübutlar arasından müvəkkilinin xeyrinə olanları, yaxud onun üçün daha əlverişli olanları seçmək və məhkəmənin diqqətini bu dəlillərə cəlb etmək kimi başa düşülürdü.[1]

Ümumiyyətlə, sovet dövrünün cinayət-prosessual hüquq doktrinasında XX əsrin 90-cı illərinə qədər cinayət prosesində iştirak edən vəkillərə sübutetmə subyektləri kimi baxan müəlliflər olduqca az idi, lakin hər halda bu yanaşmanın tərəfdarları da var idi.[2] Keçən əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində isə, cinayət prosesində müdafiəçinin müstəqil sübutetmə fəaliyyəti həyata keçirməsi ideyasının tərəfdarları çoxalmağa başladı və "müdafiəçinin axtarış fəaliyyəti", "paralel istintaq", "müdafiəçinin prosesəqədərki fəaliyyəti" və s. bu kimi ideyalar irəli sürülməyə və əsaslandırılmağa

---

[1] *Строгович М.С.* Курс советского уголовного процесса. М.: Изд. АН СССР, 1958, с. 136.

[2] *Стецовский Ю.* Участие защитника в доказывании по уголовному делу // Советская юстиция, 1967, № 6, с. 14-15; *Шафир Г.* Об участии защитника в процессе доказывания / Правосудия и адвокатура. Тезисы докладов научно-практической конференции. Ленинград, январь 1969 г., с. 32-37.

başlandı.[1] Nisbətən sonra (təqribən XX əsrin 90-cı illərinin sonundan etibarən), demək olar ki, əksər MDB dövlətlərinin yeni CPM-i qəbul edildi, bu dövlətlərdə cinayət prosesinin çəkişmə forması təsbit edildi, cinayət prosesində insan hüquq və azadlıqlarının təminatları genişləndirildi və bununla əlaqədar olaraq, müdafiəçilərə "müstəqil surətdə" sübutların toplanması və təqdim edilməsi sahəsində kvazi-səlahiyyətlər verildi. Lakin post-sovet dövlətlərinin yeni cinayət-prosessual qanunlarının əksəriyyətində bu səlahiyyətlərin realizə mexanizmləri tam nəzərdə tutulmadı və bu səbəbdən, müəlliflər məqalə və tezislərdə vəkil araşdırmasının ayrı-ayrı elementlərinə diqqət yetirməyə başladı.[2] Həmin zaman dönəmində vəkil araşdırmasının ayrı-ayrı məsələlərinə, xüsusilə məzmununda müdafiəçi-vəkillərin müstəqil şəkildə sübutlar toplamaq hüququna və bu hüququn realizə vasitələrinə bu və ya digər dərəcədə münasibət bildirilmiş dissertasiya tədqiqatları da aparılmışdır. Həmin dissertasiya tədqiqatlarının öyrənilməsi onları müxtəlif qruplarda təsnifləşdirməyə imkan verir.

Belə ki, qeyd edilən problemlə bağlı aparılan dissertasiya tədqiqatlarının bir qismində müdafiəçi-vəkillərin sübutetmə prosesində iştirakına olduqca ümumi şəkildə yanaşılmışdır. Məsələn, A.İ. Meşerinin müdafiəçi tərəfindən cinayət işinin hallarının dərk edilməsi xüsusiyyətlərinə həsr edilmiş dissertasiyasında vəkil tərəfindən sübutların toplanması məsələsinə müstəqil fəsil, yaxud

---

[1] *Горя Н.* Принцип состязательности и функции защиты в уголовном процессе // Советская юстиция, 1990, № 7, с. 22-23; *Гриненко А.В.* Поисковая деятельность защитника // Адвокатская практика, 2002, № 5, с. 31-32; *Ларин А.М.* Доказывание и предпроцессуальная деятельность защитника / В сб. "Адвокатура и современность" Отв. ред. Славин М.М. М.: АН СССР, 1987, с. 84-93.

[2] *Жунусканов Т.Ж.* Проблемы адвокатского расследования в процессе осуществления защиты по уголовному делу // Адвокатская практика, 2010, № 3, с. 40-42; *Игнатов С.Д.* Авторское видение проблемы адвокатского расследования // Научные труды РАЮН, в 3 томах, 2009, № 9, Том 3, с. 898-902; *Мельников В.Ю.* Адвокатское расследование в состязательном уголовном процессе // Адвокатская практика, 2010, № 4, с. 30-33.

paraqraf həsr edilməmişdir.[1] V.S. Popovun da dissertasiyası ibtidai araşdırmada və birinci instansiya məhkəməsində müdafiəçi-vəkilin sübutetmə prosesində iştirakına həsr edilmiş olsa da, həmin işdə müdafiəçi-vəkilin sübutlar toplamaq səlahiyyətlərinə dair müstəqil fəsil və ya paraqraf nəzərdə tutulmamışdır.[2] O.V. Qolovanova isə cinayət işi üzrə vəkil dərketməsinə həsr edilmiş dissertasiya işinin üçüncü fəslində vəkilin müstəqil sübutetmə fəaliyyətinə dolayısı ilə toxunmuşdur.[3]

Məzmununda bizim tədqiq etdiyimiz problemə münasibət bildirilmiş dissertasiyaların bir hissəsində vəkil araşdırması ilə əlaqədar məsələlərə müstəqil paraqraflar həsr edilmişdir. Məsələn, V.V. Yaselskaya öz dissertasiya işinin "Cinayət prosesində müdafiəçi-vəkilin sübutların toplanmasına dair müstəqil fəaliyyəti" adlanan dördüncü fəslində müdafiəçi-vəkillərə sübutların toplanmasına dair müstəqil fəaliyyət həyata keçirmək hüququnun verilməsi zərurətinin əsaslandırılması və cinayət işləri üzrə müdafiəçi-vəkillərin məlumat toplama üsulları kimi məsələləri ilk dəfə işıqlandıran müəlliflərdən biri olmuşdur.[4] Bunun ardınca, F.Q. Şaxkeldov dissertasiyasının ikinci fəslinin birinci paraqrafında ibtidai istintaqda müdafiəçi tərəfindən sübuti informasiyanın əldə edilməsinin və təqdim edilməsinin forma və üsullarına toxunmuşdur.[5] L.V. Makarov dissertasiyasının ikinci fəslinin birinci paraqrafında təqsirləndirilən şəxsin və onun müdafiəçisinin sübuti informasiya toplaması imkanlarının müqayisəli-hüquqi və tarixi

---

[1] *Мещерин А.И.* Особенности познания защитником обстоятельств уголовного дела. Дисс. ... к.ю.н., Ставрополь, 2002.

[2] *Попов В.С.* Участие адвоката-защитника в процессе доказывания на стадии предварительного расследования и в суде первой инстанции. Дисс. ... к.ю.н., Челябинск, 2005.

[3] *Голованова О.В.* Адвокатское познание по уголовному делу. Дисс. … к.ю.н., Нижний Новгород, 2008.

[4] *Ясельская В.В.* Деятельность адвоката-защитника по собиранию доказательств на стадии предварительного расследования. Дисс. … к.ю.н., Томск, 1999.

[5] *Шахкелдов Ф.Г.* Участие защитника в доказывании на предварительном следствии. Дисс. ... к.ю.н., Москва, 2001.

təhlilini aparmışdır.[1] İ.İ. Sxalyaxo öz işində müdafiəçi-vəkil tərəfindən sübutların toplanmasına birinci fəslin üçüncü paraqrafını həsr etmişdir.[2] A.D. Aksenovun işində ikinci fəslin birinci paraqrafı müdafiəçinin sübutların toplanmasında iştirakına həsr edilmişdir.[3] Q.Q. Skrebetsin dissertasiyasının üçüncü fəslinin ikinci paraqrafı müdafiəçi-vəkil tərəfindən cinayət işinə aidiyyəti olan məlumatların aşkar edilməsi, əldə olunması və təqdim edilməsinə aiddir.[4] Y.V. Kronov dissertasiyasının "Sübutların konkret növlərinin əldə edilməsində müdafiəçinin iştirakı üsulları" adlanan üçüncü fəslində müdafiəçinin xüsusi biliklərdən istifadə etməsi, eləcə də, maddi sübutların və digər sənədlərin əldə edilməsində müdafiəçinin rolu məsələlərini tədqiq etmişdir.[5]

Mövzuya dair bir sıra dissertasiya tədqiqatında isə vəkil araşdırması ilə əlaqədar olan məsələlərə müstəqil fəsillər həsr edilmişdir. Məsələn, A.D. Qeroyev dissertasiyasının ikinci fəslini bütövlükdə müdafiəçi-vəkilin cinayət-prosessual sübutetmədə iştirakının formalarına həsr etmişdir. Müəllif həmin fəslin daxilində müdafiəçi tərəfindən sübutların toplanmasının vasitəli formaları ilə yanaşı, bəzi bilavasitə formalarını da (maddi sübutların toplanması və təqdim edilməsi, şəxslərdən izahatların alınması, mütəxəssislərin dəvət edilməsi) tədqiq etmişdir.[6] İ.S. Kraskovanın da işinin ikinci fəsli cinayət prosesinin məhkəməyəqədərki mərhələlərində müdafiəçinin sübutetmədə iştirakının prosessual və taktiki xüsusiyyətlərinə həsr edilmişdir. Müəllif bu fəsildə müstəqil

---

[1] *Макаров Л.В.* Участие обвиняемого и его защитника в уголовно-процессуальном доказывании. Дисс. … к.ю.н., Саратов, 2002.

[2] *Схаляхо И.И.* Участие защитника в доказывании по уголовным делам. Дисс. … к.ю.н., Краснодар, 2006.

[3] *Аксенов А.Д.* Участие защитника в уголовно-процессуальном доказывании. Дисс. ... к.ю.н., Москва, 2009.

[4] *Скребец Г.Г.* Участие адвоката-защитника в формировании доказательств на стадии предварительного расследования. Дисс. ... к.ю.н., Екатеринбург, 2008.

[5] *Кронов Е.В.* Участие защитника в доказывании по уголовному делу. Дисс. ... к.ю.н., Москва, 2010.

[6] *Героев А.Д.* Участие адвоката-защитника в доказывании на предварительном следствии. Дисс. … к.ю.н., Москва, 2004.

paraqraflar qismində müdafiəçinin, öz razılıqları ilə şəxsləri sorğu-suala tutması (izahat alması), müdafiəçinin sənədlər tələb etməsi, müdafiəçinin sübut kimi istifadə edilə biləcək predmetlər və sənədlər əldə etməsi, cinayət-prosessual sübutetmədə müdafiəçinin xüsusi biliklərdən istifadə etməsi kimi məsələləri işıqlandırmışdır.[1]

Bundan başqa, qeyd etmək lazımdır ki, ötən dövr ərzində müdafiəçi-vəkillərin ümumi mənada sübutetmə prosesində deyil, sırf sübutların toplanmasında iştirakına həsr edilmiş müstəqil dissertasiya tədqiqatları da aparılmışdır. Məsələn, İ.Y. Milova ibtidai istintaq zamanı sübutların toplanmasında müdafiəçi-vəkilin iştirakına müstəqil dissertasiya tədqiqatı həsr etmiş ilk müəlliflərdən biridir. O, işində müdafiəçi-vəkilə sübutetmənin subyekti qismində yanaşmış, o cümlədən, müdafiəçi-vəkilin istintaq hərəkətlərində iştirak etməsi təcrübəsi və bunun hüquqi əsasları, müdafiəçilərin sübutların toplanmasında iştirak etməsi təcrübəsinin və bunun hüquqi əsaslarının təkmilləşdirilməsi problemləri kimi məsələlərə müstəqil fəsillər həsr etmişdir.[2]

Q.İ. Aleynikov Rusiya və Ukrayna qanunvericiliklərinə görə məhkəməyədək istintaq mərhələsində müdafiəçinin sübut toplama fəaliyyətinin nəzəri və təcrübi məsələlərini bir dissertasiya işi daxilində araşdırmağa çalışmışdır. Həmin işdə müdafiəçinin sübut toplama fəaliyyətinin nəzəri əsasları, müdafiəçinin məhkəməyədək istintaq mərhələsində sübut toplama fəaliyyətinin təcrübi xüsusiyyətləri, məhkəməyədək istintaqda müdafiəçinin sübut toplama fəaliyyətinin təkmilləşdirilməsinin hüquqi, təşkilati və taktiki istiqamətləri kimi məsələlər müstəqil fəsillər qismində tədqiq edilmişdir.[3]

R.Z. Yenikeyevin yetkinlik yaşına çatmayanların işləri üzrə müdafiəçi-vəkilin fəaliyyətində sübutetmə problemləri haqqında

---

[1] *Краскова И.С.* Защитник как субъект доказывания на досудебных стадиях уголовного процесса. Дисс. ... к.ю.н., Москва, 2008.

[2] *Милова И.Е.* Участие адвоката-защитника в собирании доказательств на предварительном следствии. Дисс. … к.ю.н., Самара, 1998.

[3] *Алейников Г.И.* Теоретические и практические вопросы деятельности защитника по собиранию доказательств в стадии досудебного следствия по законодательству Украины и России. Дисс. … к.ю.н., Москва, 2004.

dissertasiya işinin üçüncü fəslində yetkinlik yaşına çatmayanların işləri üzrə müdafiəçi-vəkilin sübutetmə fəaliyyətinin formalarının ümumi xarakteristikası verilmiş, o cümlədən müdafiəçi-vəkilin sübutetmə hərəkətlərinin müstəqil və qeyri-müstəqil formaları müstəqil paraqraflar daxilində nəzərdən keçirilmişdir.[1]

S.D. İqnatovun işi müdafiəçi-vəkilin sübutların toplanması və onların məhkəməyə təqdim edilməsinə dair fəaliyyətinin kriminalistik əsaslarına həsr edildiyi üçün maraq kəsb edir. Həmin işdə müəllif tərəfindən müdafiəçi-vəkilin sübutların toplanması və məhkəməyə təqdim edilməsinə dair fəaliyyətinin hüquqi və nəzəri-kriminalistik əsasları, eləcə də, müdafiəçi-vəkil tərəfindən sübutların toplanması və məhkəməyə təqdim edilməsinə dair taktiki kriminalistik tövsiyələrdən istifadə edilməsinin metodik əsasları kimi məsələlərə müstəqil fəsillər daxilində toxunulmuşdur.[2]

M.X. Bitokovanın dissertasiya tədqiqatı bütövlükdə müdafiəçinin sübutlar toplamaq səlahiyyətinə və onun cinayət mühakimə icraatında həyata keçirilməsinə həsr edilmişdir. Müəllif müdafiəçinin sübut toplama fəaliyyətinin hüquqi təbiəti, Rusiyanın və xarici dövlətlərin qanunvericiliyində müdafiəçinin sübutlar toplaması institutunun inkişafı və Rusiyanın müasir cinayət mühakimə icraatında müdafiəçinin sübutların toplanmasına dair fəaliyyəti kimi məsələlərə dissertasiyasının ayrı-ayrı fəsillərini həsr etmişdir.[3]

D.M. Yanbayevanın dissertasiyası ibtidai araşdırma mərhələsində müdafiəçinin sübutların toplanmasında iştirakına həsr edilmişdir. Bu işin ayrı-ayrı fəsillərində müdafiəçinin sübutların toplanmasında iştirak etməsinin prosessual və qnoseoloji problemləri, sübutların toplanması zamanı müdafiəçinin müstəntiqin

---

[1] *Еникеев Р.З.* Проблемы доказывания в деятельности адвоката-защитника по делам о преступлениях несовершеннолетних. Дисс. … к.ю.н. Уфа, 2004.

[2] *Игнатов Д.С.* Криминалистические основы деятельности адвоката-защитника по сбору доказательств и представлению их суду. Дисс. … к.ю.н., Ижевск, 2004.

[3] *Битокова М.Х.* Право собирания доказательств защитником и его осуществление в уголовном судопроизводстве. Дисс. … к.ю.н. Москва, 2008.

mülahizəsinin formalaşmasına təsir göstərməsinin prosessual vasitələri kimi məsələlərə yer verilmişdir.[1]

Hazırda MDB məkanında bilavasitə cinayət mühakimə icraatında vəkil araşdırmasına dair cəmi üç monoqrafik əsər (dissertasiya) yazılmışdır. Bunlar M.A. Osmakovun "Müasir cinayət prosesində vəkil araşdırması" adlı namizədlik dissertasiyası, Y.Q. Martınçikin "Cinayət prosesində vəkil araşdırması. Vəkil araşdırmasının nəzəri-metodoloji əsasları" adlı və P.P. Kiselyovun "Vəkil cinayət araşdırması: nəzəri və tətbiqi aspektləri" adlı monoqrafiyalarıdır (sonuncu əsər 2018-ci ildə namizədlik dissertasiyası kimi də müdafiə edilmişdir).[2]

Bununla belə, müasir hüquq ədəbiyyatının öyrənilməsi göstərir ki, hələ nəzəriyyədə cinayət prosesində vəkil araşdırmasının vahid anlayışı işlənib hazırlanmamış, vəkil araşdırması vasitələrinin sistemi və onların hüquqi tənzimetmə məsələləri barədə kompleks tədqiqat aparılmamışdır.

Dissertasiyanın sonrakı hissələrində daha ətraflı şəkildə görəcəyik ki, nəzəriyyədə vəkil araşdırmasına ibtidai araşdırmanın bir forması kimi, vahid prosessual hərəkət kimi, məhkəməyədək icraatın tərkib hissəsi kimi, yalnız cinayət təqibindən müdafiə vasitəsi kimi və s. baxan müəlliflər var, eləcə də, bəziləri vəkil araşdırmasını cinayət-prosessual qanunun əsas anlayışları sistemində təsbit edilməsini, bəziləri CPM-in ayrı-ayrı normalarına əlavə və dəyişikliklərin edilməsi ilə bu institutun tənzim edilməsini təklif edirlər.

Milli hüquq ədəbiyyatında hələ ki, bilavasitə cinayət prosesində vəkil araşdırması və onun hüquqi tənzimlənməsinin

---

[1] *Ямбаева Д.М.* Участие защитника в собирании доказательств на стадии предварительного расследования. Дисс. к.ю.н., Саратов, 2008.

[2] *Киселёв П.П.* Адвокатское уголовное расследование: теоретические и прикладные аспекты. Монография. Москва: Евразийский научно-исследовательский институт проблем права, 2013; *Мартынчик Е.Г.* Адвокатское расследование в уголовном процессе. Теоретико-методологические основы доктрины адвокатского расследования. Учебное пособие. М.: Юнити-Дана, 2009; *Осьмаков М.А.* Адвокатское расследование в современном уголовном процессе. Дисс. … канд. юрид. наук. Владимир, 2007.

konkret mexanizmi problemlərinə həsr edilmiş monoqrafik əsər yoxdur. Doğrudur, bəzi müəlliflər bu problemə ideya müstəvisində toxunmuşdur (məsələn, M.Ə. Cəfərquliyev, F.M. Abbasova, M.S. Qəfərov, C.İ. Süleymanov və s. alimlərimiz), lakin onlar problemin monoqrafik və kompleks təhlilini aparmamış, yalnız onun ayrı-ayrı məsələlərinə münasibətlər bildirmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti qismində cinayət prosesində müdafiəçi (nümayəndə, hüquqi varis) kimi iştirak edən vəkillərin öz müvəkkillərinə göstərdikləri hüquqi yardımla əlaqədar olaraq sübutların toplanmasına dair bilvasitə (müstəqil şəkildə) həyata keçirdikləri prosessual fəaliyyətləri çıxış etmişdir. Tədqiqatın predmetini isə araşdırılan məsələlərlə bağlı xüsusi hüquq ədəbiyyatı, müvafiq normativ-hüquqi aktlar və təcrübi materiallar təşkil etmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işi cinayət prosesində vəkil araşdırması institutunun mahiyyət və məzmunun əks etdirən, o cümlədən bu institutun perspektiv inkişaf istiqamətlərini müəyyən edən müəllif konsepsiyasının işlənib hazırlanması məqsədilə həyata keçirilmişdir. Bu məqsədə nail olmaqdan ötrü aşağıdakı vəzifələrin həllinə cəhd göstərilmişdir:

– Azərbaycan Respublikasının cinayət mühakimə icraatında vəkillərin yerinə yetirə biləcəkləri cinayət-prosessual funksiyaların və çıxış edə biləcəkləri prosessual hüquqi statusların dairəsinə, mahiyyət və məzmununa aydınlıq gətirmək;

– İnsan hüquqlarına dair Avropa Konvensiyasının 6-cı maddəsi ilə təmin edilən ədalətli məhkəmə araşdırması hüququnun realizə edilməsində vəkillin cinayət prosesi çərçivəsindəki fəaliyyətinin əhəmiyyətini Avropa Məhkəməsinin presedent hüququ əsasında təhlil etmək;

– vəkil araşdırması institutuna normativ əsas verən milli və beynəlxalq hüquqi mənbələrin ümumi xarakteristikasını vermək, tədqiqat predmetinə aid olan normaların doktrinal şərhini vermək, milli qanunvericiliyin təkmilləşdirirlməsinə dair konkret və əsaslandırılmış təkliflər işləyib hazırlamaq;

– vəkil araşdırması institutuna başqa müəlliflər tərəfindən verilmiş nəzəri anlayışları təhlil etmək, cinayət prosesində vəkil araşdırmasına müəllif anlayışı vermək;

– vəkil araşdırmasının subyekti, təminat mexanizmi, məqsəd və vəzifələri, başlanma-bitmə anları, müddətləri, nəticələrinin rəsmiləşdirilməsi və sübuti əhəmiyyəti kimi göstəriciləri üzrə onun konseptual xarakteristikasını işləyib hazırlamaq;

– vəkil araşdırmasının cari qanunvericiliklə yolverilən prosessual vasitələrinin məzmun və mahiyyətini təhlil etmək, vəkil tərəfindən fiziki və hüquqi şəxslərdən izahatların alınması, vəkil sorğusu, eləcə də, vəkil araşdırmasında xüsusi biliklərin tətbiqi kimi məsələlərin hüquqi və təcrübi problemlərini araşdırmaq, müəyyən edilmiş problemlərin həll yollarını təklif etmək;

– vəkil araşdırması vasitələrinin dairəsinin genişləndirilməsi istiqamətində tədqiqatlar aparmaq, vəkil araşdırmasının perspektiv imkanları qismində vəkil tərəfindən əşyalara, yerlərə baxış aparılması və maddi sübutların toplanması, vəkil araşdırmasında rəqəmsal sübutların toplanması və 3D kompyuter modelləşdirməsinin tətbiqi kimi məsələlərə diqqət yeitirmək;

– vəkil araşdırmasının kriminalistik aspektlərinə ümumi olaraq diqqət yetirmək, vəkil araşdırmasının prosessual vasitələrinin kriminalistik taktikası və ayrı-ayrı növ cinayətlərin vəkil araşdırmasının metodikası kimi kateqoriyaların nəzəriyyədə və təcrübədə mümkünlüyünü əsaslandırmaq.

**Tədqiqatın metodları.** Dissertasiya tədqiqatının metodologiyasını dialektik idrak təliminin əsas müddəaları təşkil etmişdir. Dialektik idrak nəzəriyyəsinin mühüm fərqləndirici cəhəti idrakın ictimai təbiətini qəbul etməkdən ibarətdir. Dialektik fəlsəfəyə görə, idrak təfəkkürün dərk edilən predmetə yaxınlaşmasından, fikrin biliksizlikdən biliyə doğru, yarımçıq və mükəmməl olmayan bilikdən daha tam, mükəmməl biliyə doğru hərəkətindən ibarət sonsuz bir prosesdir. Tədqiqatın metodlarına isə məntiqi idrak: analiz-sintez, müqayisəli tədqiqat, sahələrarası tədqiqat, sistemli struktur, situativ modelləşdirmə, doktrinal izahetmə, sosioloji rəy sorğusu, təcrübənin ümumiləşdirilməsi və elmi idrakın bir sıra digər metodları daxildir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

**1.** Vəkil araşdırması, hər şeydən əvvəl, vəkil statusuna malik olan şəxslərə qanunla verilmiş bir hüquqdur (davranış imkanıdır) və iştirak etdiyi icraatdan, eləcə də yerinə yetirdiyi prosessual funksiyadan asılı olmayaraq, vəkilin öz müvəkkilinə hüquqi yardım göstərməsi ilə əlaqədar onun müstəqil araşdırma aparmaq hüququ tanınmalı və təmin edilməlidir. Cinayət prosesində vəkil araşdırması – cinayət mühakimə icraatında iştirak edən vəkilin yerinə yetirdiyi cinayət-prosessual funksiyanın məqsədlərinə nail olmaq üçün müvəkkilinə göstərdiyi hüquqi yardımla əlaqədar olaraq sübut qismində istifadə oluna bilən mötəbər dəlillərin bilavasitə özü tərəfindən axtarışı, əldə edilməsi və cinayət prosesini həyata keçirən orqana təqdim edilməsi üzrə fəaliyyətidir.

**2.** Cinayət prosesində vəkil araşdırması cinayət mühakimə icraatında müdafiəçi, nümayəndə və ya hüquqi varis qismində iştirak edən vəkillərin hüququ (davranış imkanı) olduğu üçün onun səmərəli realizəsi yalnız bu hüququn aşağıdakı sxemə cavab verən təminat mexanizminə malik olduğu hallarda mümkündür:

"bu vəzifənin yerinə yetirilməməsinə görə məsuliyyət ← hüquqa cavab verən vəzifə ← müstəqil araşdırma aparmaq hüququ → hüquqdan sui-istifadəni istisna edən realizə vasitələri → bu vasitələrin qanunsuz və əsassız məhdudlaşdırıldığı hallarda hüququ bərpa-müdafiə vasitələri".

**3.** Vəkil araşdırması sübutetmə fəaliyyəti ilə əlaqədar olduğu üçün onun hədləri, barəsində sübutların toplanmasına yol verilən halların (şəxslərin) dairəsi – sübutetmə predmeti (*thema probandi*) ilə müəyyən edilir. Sübutetmə predmeti, mahiyyətcə, vəkil araşdırmasının həm şəxslərə, həm də faktlara münasibətdə hədlərini müəyyən edir. Sübutetmə predmetindən kənarda qalan hər hansı bir halın vəkil araşdırması yolu ilə müəyyən edilməsi iki müstəsna halda yolverilən sayıla bilər: a) subyektin cinayət prosesində iştirakının istisna edilməsi ilə bağlı etirazın əsaslandırılması; b) sübutun mötəbərliyinin mübahisələndirilməsi hallarında.

**4.** Təqsirsizlik prezumpsiyasından irəli gələn sübutetmə vəzifəsinin (*onus probandi*) müdafiə tərəfinin üzərinə qoyulmasının yolverilməzliyinə dair qaydaya müvafiq olaraq, müdafiə tərəfinin

subyektləri üzərinə obyektiv həqiqətin müəyyən edilməsi vəzifəsinin də qoyulması yolverilməzdir. Bununla belə, müdafiə tərəfi subyektləri obyektiv həqiqətin müəyyən edilməsində maraqlı olarlarsa, onlar həqiqətin müəyyən edilməsində fəal şəkildə iştirak etmək imkanlarına da malik olmalıdırlar. Bu anlamda, vəkil araşdırması obyektiv həqiqətin müəyyən edilməsinə əhəmiyyətli dərəcədə yardım edə biləcək bir vasitə kimi nəzərdən keçirilə bilər. Müdafiə tərəfinin fəaliyyəti obyektiv həqiqətin müəyyən edilməsi vəzifəsi üzərində qurulmasa da, müdafiə tərəfi subyektləri obyektiv həqiqətin müəyyən edilməsinə mane olmamaq vəzifəsi dayışırlar.

**5.** Ədalətli məhkəmə araşdırması hüququndan irəli gələn *equality of arms* ideyası, yəni tərəflərin hüquqi imkanlarının bərabərliyi haqqında ideya vəkil araşdırması vasitələrinin sistemini və prosessual formasını müəyyən edən əsas amildir. Hüquqi imkanların bərabərliyi ideyası tərəflərin sübutetmə vasitələrinin dərketmə formalarında (qnoseologiya baxımından) hər hansı qeyri-bərabərliyə yol verilməsini istisna edir. Belə ki, cinayət prosesində dövlət orqanları timsalında ittiham tərəfinin və müdafiə tərəfinin malik olduqları sübutetmə vasitələri prosessual formasına görə bir-birindən fərqlənə bilər, hətta fərqlənməlidir, çünki dövlət hüquq-mühafizə funksiyasının subyekti olduğu üçün həll etməli olduğu vəzifələrin öhdəsindən gəlmək üçün dövlətin məcburetmə gücünə əsaslanan prosessual vasitələrdən də istifadə edə bilməlidir. Lakin tərəflərin sübutetmə vasitələrinin dərketmə formalarında (qnoseologiya baxımından) belə qeyri-bərabərlik yolverilməzdir.

**6.** Vəkilin şəxslərdən izahatlar almaq hüququ, ilk növbədə, "əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlər çağırmaq və dindirməyə nail olmaq" hüququnun realizə vasitə kimi nəzərdən keçirilməlidir. Vəkil tərəfindən hər hansı şəxsdən izahat alınarkən bu prosesi və onun nəticələrini əks etdirən hər hansı bir akt tərtib edilmiş olarsa və xüsusilə də həmin aktın mötəbərlik göstəricisi kimi o, izahat vermiş şəxs tərəfindən öz əli ilə yazılmış və (və ya) imzalanmış olarsa, bu aktdan cinayət prosesində "sənəd" növündə sübut kimi istifadə etməyə heç nə mane olmur.

**7.** Vəkil sorğusu dedikdə, hüquqi yardımın göstərilməsi üçün əhəmiyyət kəsb edən məlumatların, sənəd, arayış və s. formalarda

təqdim edilməsi barədə vəkil tərəfindən irəli sürülən rəsmi tələb başa düşülür. Vəkil araşdırmasının bir vasitəsi kimi, vəkil sorğusunun prosessual formasına dair boşluğun aradan qaldırılması üçün işin məzmununda "VVF haqqında" Qanuna "Vəkil sorğusu" adlı yeni 15-1-ci maddənin əlavə edilməsi təklif edilmiş və həmin maddənin modeli işlənib hazırlanmışdır. Maddənin doktrinal modelində vəkil sorğusunun leqal tərifi, formasına, məzmununa və sorğuya əlavə edilməli olan sənədlərə dair tələblər, sorğunun cavablandırılmalı olduğu müddət, sorğunun cavablandırırlmamasına görə məsuliyyət, sorğunun cavablandırılmamasına yol verilən hallar kimi elementlər nəzərdə tutulmuşdur.

**8.** Öz araşdırmasını aparan vəkil sübut toplama fəaliyyəti həyata keçirərkən, ilk növbədə, işin ayrı-ayrı hallarını şəxsən özü dərk edir və daha sonra bu hallar haqqındakı bilikləri iş üzrə qərar qəbul etmək səlahiyyəti olan orqanlara təqdim etməyə cəhd edir. Bununla belə, qüvvədə olan cinayət-prosessual qanunvericilikdə istintaq hərəkətlərindən fərqli olaraq, vəkil araşdırmasının prosessual vasitələrinin gedişatı və nəticələrinin rəsmiləşdirilməsinin prosessual forması müəyyən edilməmişdir. Qeyd edilən problemin həlli yolu qismində CPM-ə "Maddə 51-3. Vəkil tərəfindən hüquqi yardımın göstərilməsi ilə əlaqədar sübutların toplanmasına dair həyata keçirilmiş hərəkətlərin aktlaşdırılması" adlı yeni maddənin əlavə edilməsi təklif edilmiş, işin məzmununda həmin maddənin tam doktrinal modeli işlənib hazırlanmışdır. Müəllifin mövqeyinə görə, qanunvericiliyin perspektiv islahatı nəticəsində vəkil tərəfindən sübutların toplanmasına dair həyata keçirilmiş hərəkətlərin aktları cinayət prosesinə yalnız "digər sənədlər" qismində deyil, istintaq və məhkəmə hərəkətlərinin protokolları ilə eyni qnoseoloji əsaslara malik olan müstəqil sübut növü kimi də daxil ola bilər.

**9.** Cinayət prosesində həm cinayət təqibi orqanları, həm də öz araşdırmasını aparan vəkillər tərəfindən istifadə edilə biləcək yeni sübutetmə vasitəsinin – 3D kompyuter modelləşdirməsinin tətbiqi imkanları olduqca genişdir. Ekspertizanın aparılmasının tərkib hissəsi olmadığı hallarda cinayət təqibi üçün əhəmiyyətli olan halların yoxlanılması və ya dəqiqləşdirilməsi məqsədi ilə hadisə yerinin, hadisənin dinamikasının, maddi sübutların, izlərin əmələ

gəlmə mexanizminin müstəqil istintaq hərəkəti, yaxud hüquqi yardımın həyata keçirilməsi ilə əlaqədar sübutların toplanmasına və ya yoxlanmasına yönəlmiş prosessual hərəkət şəkildə xüsusi proqram təminatı vasitəsilə üçölçülü şəkildə modelləşdirilməsi, o cümlədən, ifadələrin vizualizasiya edillməsi sübutetməni əhəmiyyətli dərəcədə səmərəliləşdirə bilər. Müəllif tərəfindən 3D kompyuter modelləşdirməsinin özünün prosessual formasının CPM-də təsbit edilməsi üçün "Maddə 262-1. 3D kompyuter modelləşdirməsi" adlı yeni 262-1-ci maddənin doktrinal modeli hazırlanmışdır.

**10.** Ümumiyyətlə, yaxın perspektivdə cinayət prosesində vəkil tərəfindən hüquqi yardımın göstərilməsi ilə əlaqədar sübutların toplanması vasitələrinin dairəsini vəkilə baxış aparmaq, maddi sübutlar toplamaq, rəqəmsal sübutlar toplamaq (rəqəmsal məlumatları kopyalamaq) və 3D kompyuter modelləşdirməsindən istifadə etmək hüquqlarının verilməsi hesabına genişləndirmək olar.

**11.** İşdə qüvvədə olan cinayət-prosessual qanunvericiliyin cinayət prosesində vəkil araşdırması institutunun hüquqi tənzimlənməsi üçün zəruri olan bir sıra maddələrinin, daha dəqiq, CPM-in 19.4.2-ci, 19.4.3-cü, 90.1-ci, 91.1-ci 92.3-cü, 9.5.3-cü, 92.9.9-cu, 92.12-ci, 96.1-ci, 124.2.4-cü, 143.3-cü maddələrinin təkmilləşdirilməsi istiqamətində yeni qanunvericilik təklifləri irəli sürülmüşdür ki, onların da hər birinə, müəyyən anlamda, müdafiəyə təqdim edilən müddəa kimi baxmaq olar.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya özündə Azərbaycan Respublikasının cinayət prosesində vəkil araşdırmasının prosessual-hüquqi və kriminalistik aspektlərinə həsr edilmiş ilk kompleks xarakterli tədqiqat işini əks etdirir. Dissertasiyada ilk dəfə olaraq vəkil araşdırmasının vasitələri kimi çıxış edən prosessual hərəkətlər (vəkil tərəfindən izahat alınması, vəkil sorğusu verilməsi, vəkillik fəaliyyətində xüsusi biliklərdən istifadə edilməsi) müstəqil institutlar kimi analiz edilmiş, bu vasitələrin hüquqi tənzimlənməsi funksiyasını yerinə yetirməli olan müddəalar təhlil edilmiş, həmin müddəaların boşluq və ziddiyyətləri müəyyən edilmiş, həmçinin, bu normaların təkmilləşdirilməsi istiqamətində əsaslandırılmış təkliflər irəli sürülmüşdür. İlk dəfə olaraq, vəkil tərəfindən maddi sübutların və rəqəmsal sübutların toplanması, vəkilin əşya və yerlərə baxış

keçirməsi və 3D kompyuter modelləşdirməsindən istifadə etməsi perspektivləri araşdırılmışdır. Tədqiqat işində Azərbaycan Respublikasının qanunvericiliyində təsbit edilməsi üçün bir sıra yeni maddələrin modelləri işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın həm ayrı-ayrı nəticələri, həm də ümumi məzmunu nəzəri və təcrübi əhəmiyyətə malikdir. Dissertasiyanın nəzəri əhəmiyyəti onun məzmununda cinayət-prosessual qanunvericiliyin bir sıra müddəalarının doktrinal şərhinin verilməsində, işdə nəzəri ümumiləşdirmələrin aparılmasında və diqqət yetirilmiş əksər məsələlərə dair müəllif mövqeyinin bildirilməsində ifadə olunur. Dissertasiyada formulə edilmiş fikir və təkliflər bu sahədə sonrakı tədqiqatların aparılması üçün nəzəri baza kimi çıxış edə bilər. İşin təcrübi əhəmiyyəti onun nəticələrinin və bütün məzmununun bir sıra praktiki sahələrdə tətbiq edilmə imkanı ilə izah edilir. Dissertasiyanın bütün mətnindən ali məktəblərin Hüquq fakültələrində həm bakalavr, həm də magistr pillələrində müxtəlif fənlərin tədris edilməsi prosesində dərs vəsaiti kimi istifadə edilə bilər. İşin mətnində formulə edilmiş və əsaslandırılmış qanunvericilik təkliflərindən Azərbaycan Respublikası Milli Məclisinin müvafiq qanunvericiliyin təkmilləşdirilməsi işində geniş istifadə edilə bilər. Eləcə də, dissertasiyada ifadə edilmiş mülahizələr bilavasitə vəkillik və məhkəmə orqanlarının fəaliyyətində doktrinal tövsiyələr kimi faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas məzmunu və nəticələri 2018-ci ildə Bakı şəhərində çap edilmiş "Cinayət mühakimə icraatında vəkil araşdırması" adlı monoqrafiyada öz əksini tapmışdır. Həmin monoqrafiya Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin 11 iyun 2018-ci il tarixli qərarı ilə təcrübi əhəmiyyətli vəsait kimi vəkillərin istifadəsi üçün tövsiyə olunmuş və Kollegiyanın vəsaiti hesabına təkrar nəşr edilmişdir. Əldə edilmiş əsas nəticələrin bir qismi *Web of Science* platformasında *Russian Science Citation Index* (RSCI) məlumat bazasına daxil olan "Государство и право" və "RUDN Journal of Law" kimi jurnallarda, bir hissəsi beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan nəşrlərə ekvivalent kimi qəbul

edilən, Rusiya Federasiyasının, eləcə də Ukrayna Respublikasının Ali Attestasiya Komissiyaları tərəfindən elmi dərəcə və elmi ad verilməsi üçün hüquq elmləri üzrə tövsiyə edilən dövri elmi nəşrlərə aid olan, müvafiq olaraq, "Пробелы в Российском законодательстве" və "Bulletin of the Academy of Advocacy of Ukraine" kimi jurnallarda, bir hissəsi isə xarici ölkələrdə keçirilmiş "Актуальные проблемы защиты публичных и частных интересов в Российской Федерации и Азербайджанской Республики" (Москва, Воронеж, 13 декабря 2013 г.) mövzusunda və "Development of modern technologies and scientific potential of the world" (London, July 29, 2019) mövzusunda beynəlxalq elmi konfransların materiallarında dərc edilmişdir. Bundan əlavə, dissertasiya mövzusunun ayrı-ayrı aspektlərinə həsr edilmiş elmi məqalələr Azərbaycan Respublikasında məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərdə, həmçinin Azərbaycan Respublikasında keçirilmiş müxətlif respublika və beynəlxalq miqyaslı konfransların materiallarında çap olunmuşdur.

İşin məzmunundan və nəticələrindən Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Cinayət prosesi" və "Kriminalistika və məhkəmə ekspertizası" kafedralarının, o cümlədən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquq-1" kafedrasının müəllimləri tərəfindən bilavasitə tədris prosesində istifadə edilmiş, işin məzmunu əlavə mənbə kimi tələbələrə tövsiyə edilmiş, dissertasiyada verilən şərhlərdən qüvvədə olan cinayət-prosessual qanunvericiliyin bəzi normalarının məzmun və mənasının tələbələrə izah edilməsində istifadə edilmişdir.

Dissertasiya Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən qiymətləndirilmiş və belə nəticəyə gəlinmişdir ki, cinayət mühakimə icraatında müdafiəçi və nümayəndə qismində iştirak edən vəkillər öz praktiki fəaliyyətlərində dissertasiyada aparılmış ümumiləşdirmələrdən, qanunvericiliyə verilmiş şərhlərdən, təcrübi fəaliyyətin təkmilləşdirilməsinə yönəlmiş təcrübi tövsiyələrdən səmərəli şəkildə istifadə edə bilərlər, işin ümumi məzmunu vəkillərin ixtisaslarının artırılması işində də faydalı ola bilər.

Əldə edilmiş əsas nəticələrdən müəllifin şəxsi təcrübəsində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvlüyünə qəbulla bağlı ixtisas imtahanlarını müvəffəqiyyətlə vermiş namizədlərin peşə fəaliyyətinə buraxılmaları məqsədilə keçirilən icbari təlimlərdə "Cinayət mühakimə icraatında vəkilin sübutetmə fəaliyyəti" mövzusunda mühazirələrin oxunması zamanı geniş istifadə edilir.

Tədqiqatın əsas nəticələrindən biri kimi, özündə CPM, İXM və "VVF haqqında" Qanununa əlavə və dəyişikliklər nəzərdə tutan qanunvericilik təklifləri Azərbaycan Respublikasının Milli Məclisinin Aparatına göndərilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Cinayət hüququ və cinayət prosesi" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işinin ümumi həcmi mətndəki boşluqlar, əlavələr və ədəbiyyat siyahısı istisna edilməklə, ümumilikdə 471 192 işarədən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi isə mətndəki boşluqlar istisna edilməklə, aşağıdakı kimidir: giriş 30 712, I fəsil 80 567, II fəsil 92 577, III fəsil 92 757, IV fəsil 122 511, V fəsil 32 917, nəticə 14 099 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Giriş** hissədə tədqiqat mövzusunun aktuallığı əsaslandırırlır, mövzunun elmi işlənmə səviyyəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodikası, müdafiəyə təqdim edilən müddəalar, elmi yeniliyi, tədqiqat nəticələrinin nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası və işin ümumi həcmi barədə məlumat verilir.

Dissertasiyanın **I Fəsli "Vəkillik fəaliyyəti ilə cinayət-prosessual fəaliyyətin qarşılıqlı əlaqəsi"** adlanır və özündə üç

paraqrafı birləşdirir. Birinci fəslin **"Azərbaycan Respublikasında vəkillik fəaliyyətinin ümumi müddəaları"** adlanan birinci paraqrafında Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 22 fevral 2018-ci il tarixli Sərəncamında qeyd edildiyi kimi, vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun həyata keçirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və ədalət mühakiməsinin səmərəli fəaliyyəti üçün güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyətinin olması vurğulanır. Bu paraqrafda Azərbaycanda vəkillik (hüquqi nümayəndəlik) institutunun özünəməxsus tarixi köklərə malik olması qeyd edilir və tarixə qısa ekskurs edilir. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərqərar edilməsilə Azərbaycan vəkilliyi tarixində yeni səhifənin açılmış olması, 28 dekabr 1999-cu il tarixdə "VVF haqqında" yeni Qanunun qəbul edilmiş olması diqqətə çatdırılır, həmçinin vəkillik fəaliyyətinin prinsipləri xarakterizə edilir.

Birinci fəslin **"Cinayət prosesində vəkilin müdafiəçi qismində prosessual fəaliyyəti"** adlanan ikinci paraqrafında qeyd edilir ki, cinayət mühakimə icraatında vəkilin fəaliyyəti, hər şeydən əvvəl, müdafiə funksiyası ilə assosiasiya olunur. Burada CPM-in 7.0.27-ci maddəsində müdafiəyə verilən leqal tərifə görə bu fəaliyyətin əsas məqsədləri fərqləndirilir və qeyd edilir ki, əslində, müdafiə fəaliyyəti həm şübhədən, həm də ittihamdan müdafiə kimi başa düşülməlidir Şübhənin və ya ittihamın təkzib edilməsi məqsədinə nail olmaq üçün müdafiə tərəfi aktiv olmalı, bu məqsədə çatmaq üçün müəyyən hərəkətlər etməlidir, lakin bu, heç zaman cinayət təqibinə məruz qalmış şəxsin təqsirsizliyinin sübut edilməsi vəzifəsinin (*onus probandi*) müdafiə tərəfinin üzərinə qoyulması ilə nəticələnməməlidir. Şübhənin və ya ittihamın təkzib edilməsi üçün müdafiə tərəfinin ittiham sübutuna bərabər "əks-sübut" gətirməsinə ehtiyac yoxdur, bunu üçün müdafiə tərəfi həmin sübutun həqiqiliyinə dair ağlabatan şübhə yarada bilərsə, bu, həmin ittiham sübutunun "yararsız" olması üçün kifayət edir. Müdafiə fəaliyətinin məqsədlərindən bəhs edərkən ittihamın yüngülləşdirilməsi və cəzanın (cinayət məsuliyyətinin) yüngülləşdirilməsi məqsədlərini bir-birindən fərqləndirmək və sonuncunu müdafiə fəaliyyətinin müstəqil

məqsədi kimi nəzərdən keçirmək məqsədəuyğundur. İttihamın yüngülləşdirilməsi hər bir halda rəsmi ittihamda elan edilmiş və cinayət təqibinə məruz qalan şəxsə istinad edilən əməlin hüquqi tövsifinin ya kəmiyyət, yaxud da keyfiyyətcə dəyişdirilməsi ilə bağlıdır. Cəzanın (cinayət məsuliyyətinin) yüngülləşdirilməsi isə, rəsmi elan edilmiş ittihamın hüquqi tövsifinə təsir göstərmir və bir qayda olaraq, məhkəmənin mülahizəsinə görə həll olunur.

Cinayət prosesində həyata keçirilən müdafiə fəaliyyəti həm hüquqları ümumiyyətlə pozulmaqdan qoruyur, həm də bu və ya digər səbəbdən pozulmuş hüquqların bərpa edilməsinə yönəlir

Cinayət mühakimə icraatında müdafiə funksiyasının məzmunu cinayət təqibinə məruz qalmış şəxsin vəziyyətinin qanuni yollarla hər cürə yaxşılaşdırılmasına, yəni ona qarşı formalaşmış şübhənin və ya ona rəsmi olaraq elan edilmiş ittihamın tamamilə və ya qismən təkzib edilməsinə, şübhənin və ya ittihamın, eləcə də, cəzanın və cinayət məsuliyyətinin yüngülləşdirilməsinə, cinayət təqibinə qanunsuz olaraq məruz qalmış şəxslərin pozulmuş hüquqlarının bərpa edilməsinə yönəlmiş və dairəsi qanunla müəyyən edilən konkret subyektlər tərəfindən cinayət-prosessual xarakterli fəaliyyətin həyata keçirilməsindən ibarətdir.

Birinci fəslin **"Cinayət prosesində vəkilin nümayəndə və hüquqi varis qismində prosessual fəaliyyəti"** adlanan üçüncü paraqrafında qeyd edilir ki, vəkillər üçün müdafiə funksiyası qədər ənənəvi olmasa da, cinayət prosesində iştirak edən zərər çəkmiş şəxslərin və xüsusi ittihamçıların nümayəndəsi qismində iştirak edən vəkillər sonunculara göstərilən hüquqi yardımın və təmsil etdikləri qanuni maraqların mahiyyətinə görə ittiham funksiyasının da həyata keçirilməsinə kömək edirlər. Zərər çəkmiş şəxsin (xüsusi ittihamçının) nümayəndəsi qismində iştirak edən vəkilin ittihamın sübut edilməsində iştirak etmək imkanları icraatın cinayət təqibinin hansı növündə aparılmasından asılıdır. Belə ki, cinayət təqibinin xüsusi ittiham qaydasında həyata keçirildiyi hallarda xüsusi ittihamçı qismində çıxış edən zərər çəkmiş şəxsin və onun nümayəndəsinin fəaliyyəti əsas funksiya xarakteri daşıyır, cinayət təqibinin ictimai-xüsusi ittiham qaydasında həyata keçirildiyi hallarda bu fəaliyyət subsidiar xarakter alır, cinayət təqibinin ictimai ittiham qaydasında

həyata keçirildiyi hallarda isə, o, tamamilə yardımçı (ikinci dərəcəli) xarakter qazanır.

1 dekabr 2017-ci il tarixdə cinayət-prosessual qanunvericilikdə aparılmış islahatlar nəticəsində vəkillərin cinayət mühakimə icraatında çıxış edə biləcəkləri statusların sırasına daha biri də əlavə edilmişdir – ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi. Fəaliyyətinin funksional xarakteristikası baxımından ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkilin fəaliyyətini təmsilçilik funksiyasına aid etmək olar. Başqa sözlə, ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkillə cinayət prosesinə zərər çəkmiş şəxsin nünayəndəsi qismində buraxılmış vəkil mahiyyətcə eyni prosessual funksiyanı yerinə yetirir.

Azərbaycan Respublikasının cinayət prosesinin xüsusiyyətlərindən biri ondan ibarətdir ki, burada şahidlərin də nümayəndəyə malik olmaq hüququ mövcuddur. Bu və ya digər prosessual hərəkətin icraatı zamanı hüquqi status dəyişikliyi yaşamayana qədər, yəni ifadə verdiyi dövrdə öz vəziyyətini pisləşdirmədiyinə qədər şahid nə ittiham, nə də müdafiə funksiyasının subyektidir. O, ədalət mühakiməsinə yardım funksiyası daşıyan bir subyekt olaraq qalır. Bu səbəbdən, onun nümayəndəsi qismində çıxış edən vəkil də müdafiə və ittiham funksiyalarının subyekti kimi deyil, sırf hüquqi təmsilçilik, hüquqi yardım, yaxud sadəcə hüquqmüdafiə funksiyasının subyekti kimi nəzərdən keçirilə bilər.

Dissertasiyanın **II Fəsli "İnsan hüquqlarına dair Avropa Konvensiyasının 6-cı maddəsi kontekstində cinayət prosesində vəkilin iştirakı məsələləri"** adlanır və özündə iki paraqrafı birləşdirir. İkinci fəslin **"Ədalətli məhkəmə araşdırması hüququnun cinayət prosesi və vəkillik fəaliyyəti üçün rolu"** adlanan birinci paraqrafında qeyd edilir ki, cinayət mühakimə icraatı üçün "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının "Ədalətli məhkəmə araşdırması hüququ"nu təsbit edən 6-cı maddəsi olduqca böyük əhəmiyyət kəsb edir. Ədalətli məhkəmə araşdırması hüququ kontekstində cinayət mühakimə icraatında vəkilin (müdafiəçinin) səmərəli iştirakı, hər şeydən əvvəl, *equality of arms* – "silahların bərabərliyi" prinsipinin

təminatı qismində nəzərdən keçirilə bilər. Hüquqi mübahisənin bir-birinə qarşı duran tərəfləri arasında "ədalətli balans" ideyasına[1] əsaslanan və ədalətli məhkəmə araşdırması hüququnun mahiyyətindən irəli gələn implisit xarakterli *equality of arms* prinsipi[2] hüquqi mübahisənin hər iki tərəfinə öz hüquqi mövqeyini ifadə etmək və öz sübutlarını təqdim etmək üçün ağlabatan imkanların verilməli olmasını, eləcə də, tərəflərdən birini digəri qarşısında əlverişsiz vəziyyətə salmayacaq bir şəraitin yaradılmalı olmasını tələb edir.[3] Müdafiə tərəfi ilə ittiham tərəfi arasında *equality of arms* prinsipi baxımından bərabərliyi təmin edən cinayət mühakimə icraatı qaydalarının milli qanunvericiliklə müəyyən edilməməsi ədalətli məhkəmə araşdırması hüququnun pozuntusuna səbəb ola bilər[4], çünki bu qaydaların əsas məqsədi cinayət təqibinə məruz qalan şəxsi hakimiyyətdən hər hansı sui-istifadə halından müdafiə etməkdir və bu səbəbdən, həmin qaydalarda yol verilmiş boşluqlardan və qeyri-müəyyənliklərdən, ilk növbədə, müdafiə tərəfi "əziyyət çəkir".[5]

Ədalətli məhkəmə araşdırması hüququndan irəli gələn çəkişmə prinsipi də vəkilin cinayət prosesində səmərəli iştirakının təmin edilməsi üçün az rol oynamır. Cinayət mühakimə icraatı çəkişmə prinsipi əsasında həyata keçirilmədikdə mübahisə edən tərəflər arasında ədalətli balansın təmin edilməsi əhəmiyyətli dərəcədə çətinləşir, çünki bu zaman tərəflərin iş üzrə öz mövqe və fərziyyələrini müdafiə etmək və onlara dair arqumentlər irəli sürmək imkanları arasındakı "tarazlığın" pozulması riski artmış olur.[6] Avropa Konvensiyasının 6-cı maddəsi baxımından çəkişmə prinsipi tələb edir ki, mübahisə edən tərəflər yekun məhkəmə qərarının qəbul edilməsi üçün əhəmiyyət kəsb edən bütün sübutlarla, eləcə də,

---

[1] *Dombo Beheer v. Netherlands*, 27.10.1993, 18 E.H.R.R. 213.

[2] *Neumeister v. Austria,* 27.06.1968, 1 E.H.R.R. 91.

[3] *De Haes and Gijsels v. Belgium*, 24.02. 1997, (Ap. no. 19983/92).

[4] Право Европейской конвенции по правам человека / Харрис, О'Бойл и Уорбик; [пер. с англ. Власихин В.А. и др.]. М.: Развитие правовых систем, 2016, с. 557.

[5] *Coeme and Others v. Belguim*, 22.06.2000, (Ap. no. 32492/96).

[6] *İnceoğlu S.* İnsan Hakları Avrupa Mahkemesi kararlarında adil yargılanma hakkı. İstanbul: Beta, 2013, s. 221, 249.

təqdim edilmiş yazılı sənədlərlə tanış olmaq və onlara münasibət bildirmək imkanına malik olsunlar.[1] Cinayət mühakimə icraatına münasibətdə cinayət təqibinə məruz qalmış şəxsin çəkişmə xarakterli məhkəmə baxışında mühakimə olunmaq hüququ cinayət təqibi orqanlarının müdafiə tərəfini onların sərəncamında olan bütün sübutlarla, özü də həm ittihamedici, həm də bəraətverici sübutlarla tanış etmək vəzifəsi vasitəsilə təmin edilir.[2] Bununla belə, Avropa Məhkəməsinin presedent hüququnda işin bütün materialları ilə tanış olmaq hüququ mütləq hüquq hesab edilmir[3] və bəzən bu hüququn məhdudlaşdırılması yolverilən hal kimi qiymətləndirilir (məsələn, milli təhlükəsizliyin təmin edilməsi üçün, digər şəxsin həyat və sağlamlığının mühafizə edilməsi üçün və s.).[4]

İkinci fəslin **"Cinayət törətməkdə ittiham olunan şəxslərin minimal hüquqları kontekstində vəkilin cinayət prosesində iştirakı"** adlanan ikinci paraqrafında qeyd edilir ki, Avropa Məhkəməsinin təcrübəsində vəkilin cinayət prosesində iştirakı ilə ədalətli məhkəmə araşdırması hüququ arasındakı qarşılıqlı əlaqə özünü daha çox Avropa Konvensiyasının 6-cı maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş hüquqların şərhi ilə bağlı olan işlər üzrə bildirilmiş hüquqi mövqelərdə göstərir. Konvensiyada bu hüquqların subyekti qismində "cinayət törətməkdə ittiham olunan" şəxs nəzərdə tutulur. Konvensiya ilə təmin olunan hüquqların təsir dairəsi baxımından, 6-cı maddənin 3-cü hissəsində təsbit edilmiş minimal hüquqlar cinayətdə ifşaedici fəaliyyətə *de facto* məruz qalmış hər bir şəxsə aiddir.[5] Avropa Məhkəməsinin presedent hüququnda sərgilənən bu yanaşma ilə CPM-də cinayət təqibinə məruz qalan subyektlərə, yəni şübhəli və təqsirləndirilən şəxslərə verilən anlayışlar arasında paralel apardıqda, sonuncuların aşkar natamamlığı müşahidə edilir. Müəllif belə bir mövqedən çıxış edir ki, əgər səlahiyyətli dövlət orqanı tərəfindən şəxsin cinayət törətməsi,

---

[1] *Feldbrugge v. Netherlands*, 29.05.1986, 8 E.H.H.R. 425.

[2] *Edwards and Lewis v. United Kingdom*, 27.10,2004, (Ap. nos. 39647/98 and 40461/98).

[3] *Rowe and Davis v. UK*, 16.02.2000, 30 E.H.R.R. 1.

[4] *Edwards and Lewis v. United Kingdom*, 27.10,2004, (Ap. nos. 39647/98 and 40461/98).

[5] *Çayan G.* Adil yargılanma hakkı. İstanbul: Legal Yayıncılık, 2016.

yaxud cinayət törətməyə hazırlaşması haqqında ərizə və ya məlumatlara baxılırsa, yəni şəxs barəsində ilkin yoxlama həyata keçirilirsə[1], habelə, şəxsə qarşı hər hansı prosessual məcburiyyət tədbiri tətbiq edilməsə də, onun barəsində cinayət işi başlanmışdırsa[2], o cümlədən, şəxsin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsinə şübhə yaradan bank (maliyyə) əməliyyatlarının icrası dayandırılmışdırsa[3], həmin şəxs şübhəli şəxs hesab edilməli və həm Konvensiyanın 6-cı maddəsində, həm də CPM-də təsbit edilmiş müvafiq hüquqlardan istifadə edə bilməlidir. Eynilə, CPM-in 91.1-ci maddəsində təqsirləndirilən şəxsə verilmiş leqal tərif də tənqid edilir və işin məzmununda onun yeni redaksiyası təklif edilir.

Bu paraqrafda Konvensiyanın 6-cı maddəsinin 3-cü hissəsinin "a", "b", "c", "d" və "e" bəndlərində nəzərdə tutulmuş minimal hüquqların subyektlərinin anlayışı məsələsinə aydınlıq gətirdikdən sonra, bilavasitə həmin hüquqların təhlili aparılır. Xüsusi vurğulanır ki, Konvensiyasın 6-cı maddəsinin 3-cü hissəsinin "b" bəndi cinayət törətməkdə ittiham olunan hər bir kəsin öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq hüququna təminat verir. Bu təminat tam anlamda cinayət təqibinə məruz qalmış şəxsin vəkilinə (müdafiəçisinə) də şamil edilir.

Dissertasiyanın **III Fəsli "Cinayət prosesində vəkil araşdırmasının konseptual xarakteristikası"** adlanır və özündə dörd paraqrafı birləşdirir. Üçüncü fəslin **"Vəkil araşdırması institutuna normativ əsas verən milli və beynəlxalq-hüquqi mənbələrin ümumi xarakteristikası"** adlanan birinci paraqrafında qeyd edilir ki, vəkil araşdırması institutunun hüquqi əsasını, ilk növbədə, Azərbaycan Respublikasının Konstitusiyasının ayrı-ayrı müddəaları təşkil edir (xüsusilə, 12-ci maddənin I hissəsi, 26-cı maddəsi, 50-ci maddəsi, 57-ci maddəsinin I hissəsi, 61-ci maddəsi, 63-cü maddənin III hissəsi, 125-ci maddənin VII hissəsi, 127-ci maddəsinin VII, VIII və IX hissələri). Konstitusiyadan sonra

[1] *Deweer v. Belgium*, 27.02.1980, (Ap. no. 6903/75).
[2] *Angelucci v. Italy*, 19.02.1991, (Ap. no. 12666/87).
[3] *Funke v. France*, 25.02.1993, (Ap. no. 10828/84).

əhəmiyyətinə görə cinayət mühakimə icraatında vəkil araşdırmasının hüquqi əsaslarını müəyyən edən ikinci normativ-hüquqi akt CPM hesab edilə bilər. CPM-dən sonra vəkil araşdırması institutunun hüquqi əsaslarından bəhs edərkən birinci "VVF haqqında" Qanunun adı çəkilməlidir. Vəkilin müstəqil araşdırma aparmaq hüququ və bu hüququn əsas realizə vasitələri məhz həmin Qanunun 15-ci maddəsində təsbit edilmişdir. Həmçinin, məhz bu Qanunun 7-ci maddəsinin III hissəsinin 2-ci bəndi vəkil araşdırmasının nəticələri üçün özünəməxsus "immunitet" müəyyən edir. Bununla belə, "VVF haqqında" Qanun vəkil araşdırmasının hüquqi əsasını təşkil edən yeganə qanun deyildir. Azərbaycan Respublikasının bir sıra digər qanunlarında da vəkil araşdırması institutunu hüquqi baza ilə təmin edən müddəalara rast gəlmək mümkündür. Məsələn, "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanunun 21-ci maddəsinin 3-cü hissəsində, "Notariat haqqında" Qanunun 32-ci maddəsində, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanununun 5-ci maddəsində, "İnformasiya əldə etmək haqqında" Qanunun bütövlükdə III Fəslində və s. bu kimi qanunlarda vəkil araşdırması üçün hüquqi əsas yaradan müddəalara rast gəlmək mümkündür.

Bu paraqrafda vəkil fəaliyyətinin əsaslarını nəzərdə tutan beynəlxalq-hüquqi sənədlərə İnsan hüquqlarına dair Avropa Konvensiyasından başqa, Avropa Vəkillər Kollegiyaları və Hüquq Birlikləri Şurasının 28 oktyabr 1988-ci il tarixli Plenar Sessiyasında qəbul olunmuş Avropa vəkillərinin davranış Kodeksi, BMT-nin 27 avqust-7 sentyabr 1990-cı il tarixlərində keçirilmiş VIII Konqresində qəbul edilmiş "Vəkillərin rolu haqqında" BMT-nin əsas prinsipləri, Avropa Şurası Nazirlər Komitəsinin 25 oktyabr 2000-ci il tarixli, 727 saylı iclasında qəbul edilmiş "Hüquqşünas peşəsini həyata keçrimək azadlığı haqqında" üzv dövlətlərə (2000) 21 saylı Tövsiyə aid edilmiş və müəllif onlara tədqiqat mövzusu prizmasından baxmağa cəhd etmişdir.

Üçüncü fəslin **"Vəkil araşdırması institutunun nəzəri anlayışı"** adlanan ikinci paraqrafında qeyd edilir ki, müasir hüquq ədəbiyyatında vəkil araşdırmasının hüquqi təbiətinə dair vahid mövqe mövcud deyildir. Nəzəriyyədə vəkil araşdırmasına ibtidai araşdırmanın bir forması kimi, vahid prosessual hərəkət kimi,

məhkəməyədək icraatın tərkib hissəsi kimi, yalnız cinayət təqibindən müdafiə vasitəsi kimi və s. baxan müəlliflər var, eləcə də, bəziləri vəkil araşdırmasını cinayət-prosessual qanunun əsas anlayışları sistemində təsbit edilməsini, bəziləri CPM-in ayrı-ayrı normalarına əlavə və dəyişiklərin edilməsi ilə bu institutun tənzim edilməsini təklif edirlər. Müəllifin isə yanaşması ondan ibarətdir ki, vəkil araşdırmasına, ilk növbədə, vəkil statusuna malik olan şəxslərə qanunla verilmiş bir hüquq kimi baxılmalıdır və odur ki, vəkilin iştirak etdiyi icraatdan asılı olmayaraq, konkret olaraq cinayət mühakimə icraatına münasibətdə isə vəkilin yerinə yetirdiyi prosessual funksiyadan asılı olmayaraq, vəkilin öz müvəkkilinə hüquqi yardım göstərməsi ilə əlaqədar onun müstəqil araşdırma aparmaq hüququ tanınmalı və təmin edilməlidir. Terminologiya baxımından "vəkil araşdırması" ümumiləşdirici xarakterli, yəni özündə vəkilin fərqli məqsədlərlə (yeni sübutların əldə edilməsi, mövcud sübutların təkzib edilməsi və s.) həyata keçirdiyi müxtəlif hərəkətlərin məcmusunu ehtiva edən termin kimi başa düşülməlidir. Qeyd edilənlər əsasında cinayət prosesində vəkil araşdırmasına aşağıdakı kimi doktrinal tərif verilir: "*Cinayət prosesində vəkil araşdırması – cinayət mühakimə icraatında iştirak edən vəkilin yerinə yetirdiyi cinayət-prosessual funksiyanın məqsədlərinə nail olmaq üçün müvəkkilinə göstərdiyi hüquqi yardımla əlaqədar olaraq sübut kimi istifadə edilə biləcək mötəbər dəlillərin bilavasitə özü tərəfindən axtarışı, əldə edilməsi və cinayət prosesini həyata keçirən orqana təqdim edilməsi üzrə fəaliyyətidir*".

Üçüncü fəslin **"Vəkil araşdırmasının subyekti, təminat mexanizmi, məqsəd və vəzifələri"** adlanan üçüncü paraqrafında qeyd edilir ki, "vəkil araşdırması" terminindən göründüyü kimi, onun subyekti vəkildir, vəkil köməkçisinin vəkil araşdırmasına münasibətdə rolu isə təşkilati və texniki məsələlərin həllində vəkilə yardımla məhdudlaşır. Əcnəbi vəkil Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq Azərbaycan Respublikasında həyata keçirilən cinayət mühakimə icraatına buraxılmış olsa da, o, vəkil araşdırması, yəni sübutların toplanmasına yönəlmiş fəaliyyəti həyata keçirməkdə haqlı olmayacaqdır.

Vəkil araşdırmasının bir hüquq (davranış imkanı) olduğu nəzərə alınaraq, qeyd edilir ki, hər bir hüququn təminatı xüsusi mexanizm hesabına baş tutur. Mərkəzində "hüquq"un durduğu bu təminat mexanizmi şərti olaraq, sxematik şəkildə aşağıdakı kimi təsəvvür edilir: "bu vəzifənin yerinə yetirilməməsinə görə məsuliyyət ← hüquqa cavab verən vəzifə ← **Hüquq** → hüquqdan sui-istifadəni istisna edən realizə vasitələri → bu vasitələrin qanunsuz və əsassız məhdudlaşdırıldığı hallarda hüququ bərpa-müdafiə vasitələri".[1]

Vəkil araşdırmasının məqsədi ən geniş mənada, müvəkkilə hüquqi yardımın göstərilməsidir. Vəkil araşdırmasının məqsədləri konkret halda cinayət prosesində iştirak edən vəkilin statusundan asılı olaraq (müdafiəçi, yaxud nümayəndə) yerinə yetirdiyi funksiyadan irəli gələn məqsədlərlə üst-üstə düşür.

Vəkil araşdırmasının vəzifələrinə də geniş və dar mənalarda baxmaq mümkündür. Belə ki, geniş mənada vəkil araşdırması vəkilin cinayət-prosessual fəaliyyətinin bir hissəsi olduğu üçün onun vəzifələrinə, vəkilin də fəaliyyətini özündə ehtiva edən cinayət mühakimə icraatının ümumi vəzifələri sistemində baxmaq olar. Dar mənada isə vəkil araşdırmasının vəzifələri qarşıya qoyulmuş konkret məqsədə nail olmaq üçün həll edilməli olan məsələlərin sistemi kimi başa düşülə bilər. Təqsirsizlik prezumpsiyasından irəli gələn sübutetmə vəzifəsinin (*onus probandi*) müdafiə tərəfinin üzərinə qoyulmasının yolverilməzliyinə dair qaydaya müvafiq olaraq, müdafiə tərəfinin subyektləri üzərinə obyektiv həqiqətin müəyyən edilməsi vəzifəsinin də qoyulması yolverilməzdir. Bununla belə, müdafiə tərəfi subyektləri obyektiv həqiqətin müəyyən edilməsində maraqlı olarlarsa, onlar həqiqətin müəyyən edilməsində fəal şəkildə iştirak etmək imkanlarına malik olmalıdırlar. Bu anlamda, vəkil araşdırması obyektiv həqiqətin müəyyən edilməsinə əhəmiyyətli dərəcədə yardım edə biləcək bir vasitə kimi nəzərdən keçirilə bilər. Müdafiə tərəfinin fəaliyyəti obyektiv həqiqətin müəyyən edilməsi vəzifəsi üzərində qurulmasa da, müdafiə tərəfi subyektləri obyektiv həqiqətin müəyyən edilməsinə mane olmamaq vəzifəsi daşıyırlar.

---

[1] *Khalilov F.Y.* About the realization mechanism of lawyer investigation in criminal procedure of the Republic of Azerbaijan // Bulletin of the Academy of Advocacy of Ukraine, Kiev, 2020, Volume 17, Issue 2 (45), p. 40.

Üçüncü fəslin **"Vəkil araşdırmasının başlanma-bitmə anları, müddətləri, nəticələrinin rəsmiləşdirilməsi və sübuti əhəmiyyəti"** adlanan dördüncü paraqrafında qeyd edilir ki, özü-özlüyündə vəkil araşdırmasının başlanma və bitmə anları vəkilin öz müvəkkilinə göstərdiyi hüquqi yardım daxilində vəkil araşdırmasının həll etməli olduğu konkret vəzifələrdən asılı olaraq, vəkilin mülahizəsinə, yaxud müvəkkilin tapşırığına görə müəyyən edilir, eləcə də, bu araşdırmanın davam etdiyi müddət vəkil araşdırması zamanı tətbiq edilən araşdırma vasitələrinin sayından, onların ardıcıllığından, davam etdiyi müddətlərdən və s. asılı olaraq dəyişir.

Müstəqil sübut növü olan istintaq hərəkətinin protokolu işin hallarının dərk edilməsi faktını, şəraitini və prosedur formasını əks etdirir, bu xüsusiyyətinin hesabına istintaq hərəkətinin gedişatı və nəticəsində əldə edilmiş biliklərin bir səlahiyyətli subyektdən digərinə keçməsinə xidmət edir. Bu anlamda, öz araşdırmasını aparan vəkil də sübut toplama fəaliyyəti həyata keçirərkən, ilk növbədə, işin ayrı-ayrı hallarını şəxsən özü dərk edir və daha sonra bu hallar haqqındakı bilikləri iş üzrə qərar qəbul etmək səlahiyyəti olan orqanlara təqdim etməyə cəhd göstərir. Odur ki, vəkil araşdırmasının konseptual xarakteristikası daxilində onun nəticələrinin rəsmiləşdirilməsi və onların hüquqi əhəmiyyəti məsələsi də aktuallaşır. Qanunvericilikdə istintaq hərəkətlərindən fərqli olaraq, vəkil araşdırmasının prosessual vasitələrinin gedişatı və nəticələrinin rəsmiləşdirilməsinin prosessual forması müəyyən edilməmişdir. Bu hal vəkillərə öz fəaliyyətlərində müəyyən qədər sərbəstlik versə də, digər tərəfdən bu fəaliyyətin nəticələrini rəsmi formadan məhrum edir. Vəkil tərəfindən hüquqi yardımın göstərilməsi ilə əlaqədar sübutların toplanmasına dair həyata keçirilmiş hərəkətlərin gedişatının və nəticələrinin rəsmiləşdirilməsinin prosessual formasının qanunda təsbit edilməsi eyni zamanda bir neçə məsələnin müsbət həllinə xidmət edə bilər. Odur ki, qeyd edilən problemin həlli yolu qismində CPM-ə *"Maddə 51-1. Vəkil tərəfindən hüquqi yardımın göstərilməsi ilə əlaqədar sübutların toplanmasına dair həyata keçirilmiş hərəkətlərin aktlaşdırılması"* adlı yeni maddənin əlavə edilməsini məqsədəuyğun hesab edilir. Təklifin daha real xarakter kəsb etməsi üçün CPM-in

124.2.4-cü maddəsində *"istintaq və məhkəmə hərəkətlərinin protokolları"* sözlərindən sonra *"vəkil tərəfindən hüquqi yardımın göstərilməsi ilə əlaqədar sübutların toplanmasına dair həyata keçirilmiş hərəkətlərin aktları,"* sözlərinin əlavə edilməsinin də zəruri olduğu bildirilir.

Dissertasiyanın **IV Fəsli "Vəkil tərəfindən hüquqi yardımın göstərilməsi ilə əlaqədar sübutların toplanmasının cinayət-prosessual vasitələri"** adlanır və özündə iki paraqrafı birləşdirir. Dördüncü fəslin **"Vəkil araşdırmasının cari qanunvericiliklə yolverilən prosessual vasitələri (de lege lata)"** adlanan birinci paraqrafı özü də üç bəndə bölünmüşdür. Dördüncü fəslin birinci paraqrafının **"Vəkil tərəfindən fiziki və hüquqi şəxslərdən izahatların alınması"** adlanan birinci bəndində qeyd edilir ki, vəkilin izahat almaq hüququ ədalətli məhkəmə araşdırması hüququnun tərkib hissəsi kimi "əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlər çağırmaq və dindirməyə nail olmaq" hüququnun əsas təminatlarından biridir.

Vəkilin ayrı-ayrı şəxslərdən izahat almaq hüququ könüllülük prinsipinə əsaslanmalıdır. Vəkil izahat almaq istədiyi şəxsi onunla dialoqa vadar etmək üçün "ifadə vermək vəzifəsi", "ifadə verməkdən boyun qaçırmağa görə məsuliyyət" kimi kateqoriyalardan istifadə edə bilməz, lakin vəkil, şəxsə onun gələcəkdə müdafiə şahidi olmaq perspektivi barədə məlumat verməlidir və belə perspektivlə əlaqədar həmin şahidin ifadə vermək üçün ibtidai araşdırma orqanına, yaxud məhkəməyə çağırıla biləcəyini və onun artıq dövlət orqanları tərəfindən şahid qismində çağırıldıqdan sonra "ifadə vermək vəzifəsi" və "ifadə verməkdən boyun qaçırmağa görə məsuliyyət" subyektinə çevriləcəyini bildirməlidir. Vəkil, ifadələri şahid ifadələri kimi qiymətləndirilə biləcək istənilən şəxsdən könüllülük prinsipi əsasında izahat ala bilər.

Doktrinada vəkil tərəfindən izahatların alınmasının ən aktual problemi onun gedişinin və nəticələrinin rəsmiləşdirilməsi hesab edilir. Müəllif belə hesab edir ki, vəkil tərəfindən izahatların alınması elə prosessual vasitədir ki, hətta Azərbaycan Respublikasının hazırda qüvvədə olan qanunvericiliyinin müddəaları da ondan kifayət qədər səmərəli şəkildə istifadə edilməsinə imkan verir.

Belə ki, bu prosessual vasitənin əsas məqsədi kimi məhz potensial müdafiə şahidlərinin və onların hansı həcmdə və hansı məzmunda informasiyaya malik olmalarının müəyyən edilməsi çıxış edir. Bu prosessual vasitə vəkilin ittiham tərəfi ilə işin hallarını eyni şərtlər daxilində, verbal məlumatların toplanması və təhlili yolu ilə dərketmə imkanlarını bərabərləşdirməyə xidmət edir. Bu məqsədə nail olmaq üçün isə izahat alma prosesinin və nəticələrinin necə rəsmiləşdiriləcəyi əhəmiyyət kəsb etmir. Prinsipcə, vəkil tərəfindən izahat alma prosesi və nəticəsi sırf şifahi xarakter də daşıya və ümumiyyətlə, heç bir formada rəsmiləşdirilməyə də bilər, çünki birincisi, qanun bu prosesin rəsmiləşdirilməsini tələb etmədiyi üçün vəkil belə halda heç bir prosessual qaydadan kənara çıxmamış olacaq, ikincisi, vəkil tərəfindən konkret şəxsdən şifahi qaydada müəyyən hallar barədə məlumatların alınması yuxarıda qeyd edilmiş əsas məqsədə nail olmaq üçün kifayət edəcəkdir, üçüncüsü, hətta bu proses hər hansı bir şəkildə rəsmiləşmiş olsa belə, izahat vermiş şəxs yenə də məhkəməyə dəvət edilməli və orada şahid qismində ifadə verməli olacaqdır. Bununla belə, müəllif, vəkil tərəfindən izahatların alınmasının rəsmiləşdirilməsinin daha məqsədəuyğun olduğunu inkar etmir, hətta bunun tərəfdarı kimi çıxış edir. Müəllifin mövqeyinə görə, izahatların alınmasının və onun nəticələrinin hər hansı formada (akt, protokol, arayış və s.) rəsmiləşdirilməsindən asılı olmayaraq, qüvvədə olan CPM-in 124.2.5-ci və 135.1-ci maddələrinin müddəaları həmin rəsmiləşdirmə vasitəsinin müstəqil sübut kimi istifadəsinə imkan verir.

Dördüncü fəslin birinci paraqrafının **"Vəkil sorğusu"** adlanan ikinci bəndində qeyd edilir ki, qüvvədə olan qanunvericilikdə vəkillərin, o cümlədən, cinayət prosesində iştirak edən vəkillərin məlumat toplamaq və sənəd tələb etmək hüququna malik olmasını təsdiq edən konkret müddəalar mövcuddur və məhz onlar vəkil sorğusu institutunun hüquqi əsasını təşkil edir. Vəkil sorğusu dedikdə, hüquqi yardımın göstərilməsi üçün əhəmiyyət kəsb edən məlumatların, sənəd, arayış və s. formalarda təqdim edilməsi barədə vəkil tərəfindən irəli sürülən rəsmi tələb başa düşülür. Bununla belə, hesab edilir ki, vəkil sorğusunun vahid prosessual formasının sahəvi qanunvericiliklə tənzim edilməməsi bir prosessual vasitə kimi onun

səmərəliliyinə xələl gətirə bilər, çünki vəkil sorğusunun qanunla müəyyən edilmiş prosessual formadan kənar, hər bir vəkilin öz mülahizəsinə görə müəyyən etdiyi formada verilməsi təcrübədə belə sorğuların yazılı formada verilməsinin məqsədəuyğun olduğu hallarda onun şifahi verilməsinə və bununla da kifayət qədər reaksiya ala bilməməsinə, yaxud sorğuda vacib rekvizitlərin göstərilməməsinə və bunula da sorğunun məsələn, anonim sorğu kimi qiymətləndirilməsinə, o cümlədən, sorğu tələbinin qeyri-dəqiq formulə edilməsinə və bununla da sorğuya veriləcək cavabın da qeyri-dəqiq olmasına səbəb ola bilər və s. Bununla əlaqədar olaraq, müəllif, "VVF haqqında" Qanuna *"Maddə 15-1. Vəkil sorğusu"* adlı yeni normanın əlavə edilməsini nəzərdən keçirilən məsələnin həlli yollarından biri kimi təklif edir.

Dördüncü fəslin birinci paraqrafının **"Vəkil araşdırmasında xüsusi biliklərin tətbiqi məsələləri"** adlanan üçüncü bəndində qeyd edilir ki, müdafiə funksiyasının yerinə yetirilməsində mütəxəssis yardımının rolu kifayət qədər əhəmiyyətli olsa da, nəzərə alınmalıdır ki, mütəxəssisin fikirləri Azərbaycanın cinayət prosesində sübut kimi çıxış etmir və bu səbəbdən, müvafiq sahədə ekspert rəyini əvəz edə bilməz. Mütəxəssisin, onun "rəyinin" və "ifadəsinin" prosessual-hüquqi statusu cari cinayət-prosessual qanunvericilikdə müəyyən edilmiş həcmdə qaldığı müddətdə müdafiə funksiyasının yerinə yetirilməsi, o cümlədən, vəkil araşdırmasının aparılması zamanı mütəxəssisin fikrinin öyrənilməsi (rəyinin alınması) yalnız istiqamətverici xarakter daşımalı, mütəxəssisin bu və ya digər məsələ barədə bildirdiyi fikirlər müdafiə üçün əhəmiyyət kəsb etdiyi hallarda bu istiqamətdə məhz prosessual anlamda sübut kimi istifadə edilə biləcək materialların toplanmasına, müqavilə əsasında ekspert rəyinin alınmasına cəhd göstərilməlidir.

Mütəxəssisin anlayışından fərqli olaraq, ekspertin anlayışında qanunverici orqan onun həm də müdafiə tərəfindən, o cümlədən müdafiəçi-vəkil tərəfindən dəvət edilə bilmə imkanını nəzərdə tutmuşdur (CPM-in 97.1-ci maddəsi). İttiham tərəfi ilə eyni şərtlər daxilində müdafiə tərəfinin də öz dəvət etdiyi ekspertlərin xidmətlərindən faydalanmaq hüququ ədalətli məhkəmə araşdırması hüququnun tərkib hissəsidir və "İnsan hüquqlarının və əsas

azadlıqların müdafiəsi haqqında" Konvensiyanın ratifikasiyası milli qanunvericilikdəki *de lege lata* vəziyyətdən asılı olmayaraq, ədalətli məhkəmə araşdırması hüququnun tərkibinə aid olan digər hüquqlarla yanaşı, müdafiə tərəfinin öz dəvət etdiyi ekspertlərin xidmətlərindən faydalanmaq imkanının tanınması kimi başa düşülməlidir.

Müəllifin fikrinə görə, müdafiəçinin müqavilə əsasında ekspert rəyi almaq və mütəxəssis fikrini öyrənmək hüquqlarını yalnız xüsusi ittihamlı işlərlə məhdudlaşdırmaq məntiqli deyil. Maraqlıdır ki, qanunvericilik sübutetmə vəzifəsi (*onus probandi*) daşımayan müdafiəçiyə xüsusi ittihamlı işlər üzrə xüsusi biliklərdən istifadə etmək imkanı verdiyi halda, sübutetmə vəzifəsinin bilavasitə subyekti olan xüsusi ittihamçıya və ya onun nümayəndəsinə belə bir hüquq verməmişdir. Halbuki, xüsusi ittihamlı işlər üzrə məhkəməyədək materialların hazırlanması və məhkəmədə ittihamın sübut edilməsi vəzifəsi məhz sonuncu qeyd edilən subyektlərin öhdəsinə düşür (CPM-in 21.3, 88.4.1, 88.4.4, 103.5.1-ci maddələri). İkincisi, əgər qanunvericilik xüsusi ittihamlı işlər üzrə müdafiəçinin əldə etdiyi ekspert rəyini sübut kimi qəbul edirsə, hansı səbəbdən ictimai və ictimai-xüsusi ittihamlı işlər üzrə eyni prosessual əsaslarla əldə edilmiş ekspert rəyinin sübuti əhəmiyyəti istisna edilməlidir? Eləcə də, müdafiəçi tərəfindən hər hansı sahənin mütəxəssisi ilə məsləhətləşmək imkanlarının da xüsusi ittihamlı işlərlə məhdudlaşdırılması bir neçə səbəbə görə ağlabatan deyildir, çünki mütəxəssis, bir qayda olaraq, prosessual hərəkətlərin həyata keçirilməsinə kömək göstərmək məqsədilə cəlb edilən subyektdir. Azərbaycan Respublikasının cinayət prosesində mütəxəssis rəyi (arayışı, təliqəsi, aktı və s.) müstəqil sübut növü hesab edilmədiyi üçün (CPM-in 124.2-ci maddəsi), hətta dövlət orqanları tərəfindən fikir öyrənmək məqsədilə cəlb edildikləri hallarda belə, onların fəaliyyəti xüsusi prosessual rəsmiləşdirmə tələb etmir, mütəxəssislə məsləhətləşmə bu və ya digər prosessual akt formasında rəsmiləşdirilsə belə, sübuti əhəmiyyət kəsb etmir. Başqa sözlə, mütəxəssislə məsləhətləşmə prosessual xarakterli məsələdən daha çox, taktiki-təşkilati bir məsələdir. Belə olan halda, müdafiə xəttinin düzgün qurulması, cinayət təqibi orqanı tərəfindən əldə edilmiş ekspert rəyinin mahiyyətinin düzgün qavranılması, ümumiyyətlə, işin

hallarının dərk edilməsi üçün xüsusi bilikli şəxsin verdiyi izahlara ehtiyac duyulan bütün hallarda müdafiəçiyə mütəxəssisin fikrini öyrənməyi qadağan etmək mümkün deyil. Həmçinin, söhbət mütəxəssis fikrinin öyrənilməsindən gedirsə, bunu təkcə müdafiəçi kimi çıxış edən vəkillər deyil, nümayəndə qismində iştirak edən vəkillər də edə bilərlər, çünki bu, ilk növbədə, bir vəkil hüququdur ("VVF haqqında" Qanunun 15-ci maddəsi). Mütəxəssis fikrinin öyrənilməsi məxsusi prosessual formaya malik olmadığı üçün belə bir qadağanı, yəni ictimai və ictimai-xüsusi ittihamlı işlər üzrə müdafiəçinin mütəxəssislə məsləhətləşməməsini praktiki cəhətdən təmin etmək mümkün olmaz.

Müdafiə tərəfinin ekspert rəyi almaq imkanına gəlincə, CPM-in 268.1.4-cü maddəsində, faktiki olaraq, müdafiə tərəfinə cinayət təqibinin ictimai və ictimai-xüsusi ittiham qaydasında aparıldığı hallarda alternativ ekspertiza aparmaq imkanı verilmişdir, lakin belə ekspertizanı təyin etmə subyektləri kimi şübhəli və ya təqsirləndirilən şəxs göstərilmişdir. Aşkardır ki, şübhəli şəxsin tutulmuş olduğu, təqsirləndirilən şəxsin həbsdə olduğu hallarda onlar tərəfindən müvafiq xüsusi bilikli şəxsin tapılması, onunla müqavilə bağlanması və s. hərəkətlərin edilməsi mümkün deyil. Hətta onların azadlıqda olduğu hallarda belə, ali hüquq təhsili olmayan şübhəli və ya təqsirləndirilən şəxsin ekspert kimi müraciət etdiyi şəxslər qarşısında zəruri suallar qoymaq imkanı inandırıcı deyildir. Deməli, əksər hallarda alternativ ekspertiza məhz müdafiəçi tərəfindən təyin ediləcəkdir. Sadəcə olaraq, bu sübut növünün əldə edilməsi əlavə xərclər tələb etdiyi üçün alternativ ekspertizanın şübhəli və ya təqsirləndirilən şəxsin razılığı ilə müdafiəçi tərəfindən təyin edilməsi imkanından bəhs etmək olar.

Dissertasiyanın dördüncü fəslinin ikinci paraqrafı **"Vəkil araşdırması vasitələrinin dairəsinin genişləndirilməsi məsələləri (de lege ferenda)"** adlanır və özündə iki bəndi birləşdirir. Bu paraqrafın **"Vəkil tərəfindən əşyalara, yerlərə baxış aparılması və maddi sübutların toplanması imkanları"** adlanan birinci bəndində göstərilir ki, vizual müşahidə və müayinə dərketmənin ən sadə və ən geniş yayılmış metodlarından biridir. Maddi aləmin əksər obyektləri (mikro hissəciklər istisna olmaqla), ilkin olaraq, onları görməklə,

onlara toxunmaqla, onların forma və quruluşunu, çəki və ölçüsünü hiss etməklə dərk edilir. Cinayət prosesində də dərketmənin bu metodlarına əsaslanaraq sübutlar toplanılır. Qanunvericilik cinayət prosesini həyata keçirən orqanlardan fərqli olaraq, işdə bu və ya digər prosessual statusda çıxış edən vəkillərə sübut toplama vasitəsi kimi baxış aparmaq hüququ verməmişdir. Bununla belə, qanunvericiliyin vəkil tərəfindən belə dərketmə vasitəsinə müraciət etməsi birbaşa olaraq istisna da edilməmişdir, əksinə, qanunvericiliyin bəzi müddəaları belə deməyə əsas verir ki, cinayət prosesində vəkil tərəfindən müşahidə metodu nəticəsində dərk edilmiş hallara istinadən müəyyən tələbin əsaslandırılması tamamilə yolveriləndir (CPM-in 236.3-cü, 285.1-ci 333.1-ci maddələri). Başqa sözlə, qanunvericilik vəkilin öz sübutetmə fəaliyyətində müşahidə-müayinə metoduna əsaslanan dərketmə vasitəsindən istifadə etməsini istisna etmir, sadəcə olaraq, qanunda bu vasitə üçün prosessual forma müəyyən edilməmişdir. Bununla əlaqədar olaraq, vəkil tərəfindən hüquqi yardımın göstərilməsi ilə əlaqədar sübutların toplanmasına dair həyata keçirilmiş hərəkətlərin aktlaşdırılması ilə bağlı irəli sürülmüş təklif reallaşarsa, vəkilin ona könüllü təqdim edilmiş əşyalara, yaxud ictimai yerlərə və s. baxış keçirərək bu obyektlər haqqında sübuti əhəmiyyətə malik informasiya toplamaq və bu informasiyanı sonradan cinayət prosesini həyata keçirən orqana ötürmək üçün rəsmiləşdirmək imkanları genişlənə bilər.

Öz araşdırmasını aparan vəkilin digər sübut növləri ilə yanaşı, maddi sübutlar (cinayət prosesini aparan orqan tərəfindən maddi sübut kimi tanına biləcək əşyalar) da toplamaqla hüquqi yardımın göstərilməsi ilə əlaqədar qarşısında duran vəzifələrin daha səmərəli həllinə nail ola biləcəyi şübhə doğurmur. CPM-in 92.9.5-ci, 92.11.4-cü, 102.6.4-cü və 102.9.4-cü maddələrinə əsasən, bir tərəfdən, qanunvericilik vəkilin sərəncamında işin həlli üçün əhəmiyyətli ola biləcək əşyaların mövcud ola bilmə ehtimalını qəbul edir və ona bu əşyaları cinayət prosesini həyata keçirən orqana təqdim etmək hüququnu verir, digər tərəfdən isə CPM-in nə 92.9.9-cu, nə də 143.3-cü maddəsi müdafiəçi üçün bu və ya digər formada işin həlli üçün əhəmiyyətli ola biləcək əşyaların toplanması hüququnu müdafiəçinin sübutların toplanması ilə bağlı olan digər hüquqları sırasında nəzərdə

tutur. Cinayət prosesində nümayəndə qismində iştirak edən vəkillərin sübutların toplanmasına dair səlahiyyətlərinə CPM-də daha da səthi yanaşıldığı üçün vəziyyət onlara da münasibətdə eynidir. Hazırda cinayət prosesində iştirak edən vəkillərin sübut qismində istifadə edilməsi üçün əşyalar toplamaq kimi bir hüququ birbaşa təsbit edilmədiyi üçün bu məsələ barədə qeyri-müəyyənlik hökm sürür. Müəllif hesab edir ki, problemin həlli yolunda ilk addım məhz bu hüququn CPM-də rəsmiləşdirilməsi olmalıdır.

Dördüncü fəslin ikinci paraqrafının **"Vəkil araşdırmasında rəqəmsal sübutların toplanması və 3D kompyuter modelləşdirməsinin tətbiqi imkanları"** adlanan ikinci bəndində isə göstərilir ki, İT-nin həyatın bütün sahələrinə sirayət etməsi bu texnologiyalardan istifadə etməklə cinayətlərin törədilməsi üçün də şərait yaratmışdır və bunun nəticəsi olaraq, adətən maddi (fiziki) mühit kimi başa düşülən "hadisə yeri" qavramı, hazırda həm də rəqəmsal mühit kimi başa düşülə bilir, rəqəmsal mühitdə mövcud olan informasiya isə rəqəmsal sübutlar kimi başa düşülür.[1] Müasir dövrdə cinayət təqibinin həyata keçirilməsində də, cinayət təqibindən müdafiə üçün də rəqəmsal sübutların əhəmiyyəti digər sübut növlərindən az deyildir, əksinə, son zamanlar sosial şəbəkələrdən, rəqəmsal texniki qurğulardan (smartfonlar, planşetlər və s.) istifadənin həddən artıq genişlənməsi, belə deməyə əsas verir ki, hazırda insanlar və hadisələr haqqında rəqəmsal mühitdə daha çox informasiya mövcuddur, nəinki analoq mühitdə. Belə olan şəraitdə, müvafiq informasiya həm cinayət təqibi orqanının, həm də hüquqi yardım göstərən vəkilin interpretasiyasında sübut kimi də istifadə edilə bilər. Məsələn, S. Yetim "Facebook" sosial şəbəkəsi timsalında cinayət mühakimə icraatı çərçivəsində sosial şəbəkələrdən elektron sübutların toplanmasından bəhs edərkən, ilk növbədə, sosial şəbəkələrdə yer alan açıq xarakterli məlumatlara diqqəti cəlb edərək, bu tipli informasiyaların sübut kimi istifadə edilə bilmə potensialını əsaslandırır.[2]

---

[1] *Değirmenci O.* Ceza muhakemesinde sayısal (dijital) delil. Ankara: Seçkin, 2014, s. 125.

[2] *Yetim S.* Ceza muhakemesi hukuku kapsamında sosyal medyadan elektronik delil toplama ve değerlendirme (Facebook örneği). Ankara: Seçkin, 2016, s. 378.

Müəllif hesab edir ki, öz araşdırmasını aparan vəkil üçün internetdən açıq xarakterli məlumatların toplanması, eləcə də, ona könüllü təhvil verilmiş rəqəmsal qurğuların yaddaşından məlumatların götürülməsi kifayət qədər səmərəli sübut toplama vasitəsi kimi nəzərdən keçirilə bilər. Rəqəmsal informasiyanın mənşəyini və kopyalanma şəraiti əks etdirən aktın tərtib edilməsi, zəruri hallarda müvafiq mütəxəssisin cəlb edilməsi ilə rəqəmsal mühitdə (internet şəbəkəsi, rəqəmsal qurğu və s.) mövcud olan məlumatların kopyalanması yolu ilə sübutların toplanması imkanları da vəkil araşdırması vasitələrinin genişləndirilməsi perspektivlərində nəzərə alınmalı olan istiqamətlərdən biridir.

Həmçinin, göstərilir ki, modelləşdirmə dərketmənin vasitəli metodlarından biri olub dərketmə obyektinin bilavasitə özünün deyil, süni şəkildə yaradılmış nümunəsinin, yəni modelinin öyrənilməsi yolu ilə biliklərin əldə edilməsinə xidmət edir. 3D kompyuter modelləşdirməsi dərketmə obyektinin (predmetin, hadisənin, şəraitin) təsvirinin xüsusi kompyuter proqramı vasitəsilə üçölçülü fəzada, rəqəmsal (virtual) mühitdə yaradılmasını nəzərdə tutur. Mahiyyətinə görə, 3D kompyuter modelləşdirməsi, tədqiq olunan predmetin, hadisənin, yaxud şəraitin rəqəmsal (virtual) təsvirinin yaradılması ilə yanaşı, həm də həmin təsvirə dair verilənlərlə aparılan manipulyasiyalar vasitəsilə rəqəmsal mühitdə həyata keçirilən bir eksperimentdir[1] və bu mənada, 3D kompyuter modelləşdirməsinə cinayət hadisələrinin araşdırılması kontekstindən yanaşsaq, onu istintaq eksperimentinin bir növü kimi də qiymətləndirmək olar. Cinayət-prosessual hüquq baxımından isə 3D kompyuter modelləşdirməsinin ənənəvi istintaq eksperimentindən əsas fərqi ondan ibarətdir ki, əgər istintaq eksperimentinin icraatı ibtidai araşdırma orqanlarının müstəsna səlahiyyətindədirsə, 3D kompyuter modelləşdirməsi vəkil üçün həm qanunla yolverilən (daha dəqiq desək, qadağan edilməyən), həm də təşkil və realizə edilməsi baxımından əlçatandır. Öz araşdırmasını aparan vəkil 3D kompyuter modelləşdirməsindən istifadə etməklə aşağıdakı vəzifələrin həllinə nail ola bilər: hadisənin dinamikası və izlərin əmələ gəlmə

---

[1] *Flor N.* Virtual Crime Scene Reconstruction: The Basics of 3D Modeling // Journal of Digital Forensics, Security and Law, 2011, Vol. 6(4), p. 67-68.

mexanizminə dair ibtidai araşdırma orqanının üstünlük verdiyi, rədd etdiyi, yaxud ümumiyyətlə nəzərdə tutmadığı fərziyyələrin yoxlanılması; ibtidai araşdırma orqanına, yaxud vəkilin özünə müvafiq olaraq ifadələr və izahatlar formasında verilmiş verbal məlumatların vizualizasiyası; ibtidai araşdırma orqanı tərəfindən tərtib edilmiş istintaq hərəkəti protokollarındakı məlumatarın vizualizasiyası; ibtidai araşdırma orqanı tərəfindən götürülmüş və maddi sübut qismində tanınmış predmetlərin virtual modellərinin hazırlanması, verilənlər bazasına daxil edilən xassələr hesabına bu modellərin öz aralarında və ətraf mühitlə qarşılıqlı əlaqəsinin xüsusiyyətlərinin müəyyən edilməsi; verilənlər bazasına daxil edilən xassələr hesabına konkret şərtlər daxilində konkret hadisələrin baş verməsinin mümkün olub-olmamasının müəyyən edilməsi.

Vəkil araşdırması zamanı 3D kompyuter modelləşdirməsi xüsusi biliklərin və xüsusi proqram təminatının tətbiqini gərəkdirdiyi üçün[1] informasiya texnologiyaları sahəsində mütəxəssisin yardımı ilə həyata keçirilməlidir.

Dissertasiyanın **V Fəsli "Cinayət prosesində vəkil araşdırmasının kriminalistik aspektləri"** adlanır. Bu fəsildə göstərilir ki, cinayət mühakimə icraatında vəkil fəaliyyəti və onun tərkib hissəsi kimi cinayət prosesində vəkil araşdırması müasir kriminalistika elminin tamhüquqlu obyekti kimi çıxış edir.[2] Vəkil araşdırmasına kriminalistikanın obyekti kimi baxarkən, onun ayrı-ayrı kriminalistik aspektlərinə də diqqət yetirmək zərurəti meydana çıxır. Belə ki, vəkil araşdırması sübutların aşkar edilməsi və toplanmasına yönəlmiş bir fəaliyyət olduğu üçün, kriminalistik texnikanın müddəaları həm bilavasitə vəkil araşdırmasının öz gedişatında, həm də cinayət təqibi orqanı tərəfindən toplanmış sübutların vəkil tərəfindən tədqiq edilməsi və qiymətləndirilməsi

---

[1] *St. Clair E., Maloney A., Schade A.* An Introduction to Building 3D Crime Scene Models Using SketchUp // Journal of Association of Crime Scene Reconstruction, 2012, Vol. 18(4), p. 29-30.

[2] *Xəlilov F.Y.* Vəkil araşdırması müasir kriminalistika elminin obyektidir // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri. Humanitar və dəqiq elmlər seriyası. Bakı, 2015, № 42, s. 13-15; *Xəlilov F.Y.* Vəkil kriminalistikası kriminalistikada yeni istiqamət kimi // Polis Akademiyasının elmi xəbərləri, Bakı, 2017, № 3-4, AR DİN Polis Akademiyası, s. 138-140.

üçün əhəmiyyətlidir. Xatırlatmaq yerinə düşər ki, "VVF haqqında" Qanunun 15-ci maddəsinin II hissəsinin 5-ci bəndinə əsasən, qanunvericiliklə nəzərdə tutulmuş qaydada texniki vasitələrdən istifadə etmək vəkillərə qüvvədə olan qanunvericiliklə verilmiş əsas hüquqlardan biridir. Bu mənada, vəkil araşdırmasında bilavasitə istifadə edilə biləcək elmi-texniki vasitələri də kriminalistik texniki vasitələrə aid etmək mümkündür.

Kriminalistik taktikanın ümumi müddəalarını vəkil araşdırmasına tam həcmdə tətbiq etmək mümkündür, ən əsası isə, kriminalistik taktikaya dair biliklər bizə vəkil araşdırmasının ayrı-ayrı prosessual vasitələrinin realizə taktikasını işləyib hazırlamağa imkan verə bilər.

Kriminalistik metodikanın da müddəalarının vəkil araşdırmasına tətbiq edilməsinin və gələcəkdə ayrı-ayrı cinayətlərin istintaq metodikası ilə yanaşı, müxtəlif cinayətlərin vəkil araşdırmasının da metodikasının işlənib hazırlanmasının mümkünlüyünə dair fikir bildirmək olar. Ən ümumi mənada, kriminalistik metodika ayrı-ayrı növ cinayətlərin istintaqı işinin səmərəliləşdirilməsinə və asanlaşdırılmasına yönəlib, bu məntiqlə, müxtəlif cinayətlər barəsində icraatlar zamanı vəkillər tərəfindən aparılan araşdırmaların da daha səmərəli və asan olmasına xidmət edə biləcək müddəaların məcmusuna vəkil araşdırması metodikası kimi baxıla bilər. Yeri gəlmişkən, əgər istintaq metodikasının ənənəvi olaraq ən vacib hesab edilən təşkilati-taktiki xarakterli tövsiyələri ilə vəkil araşdırmasının metodikasına dair hazırlanacaq tövsiyələr arasında paralel aparmaq istəsək, qeyd edə bilərik ki, müstəntiqlə əməliyyat-axtarış orqanlarının qarşılıqlı fəaliyyətindən başqa, istintaq metodikasının bütün digər tövsiyələri, yəni araşdırmanın fərdiliyi, araşdırma prosesində mütəxəssis və ekspertin köməyindən istifadə olunması, eləcə də, ictimaiyyət nümayəndələri ilə hərəkətlərin birləşdirilməsi konkret xüsusiyyətlər nəzərə alınmaqla, vəkil araşdırmasına münasibətdə də tətbiq edilə bilər. Həmçinin, əgər xüsusi kriminalistik metodika müddəalarını vəkil araşdırmasına tətbiq etmək istəsək, hesab edirik ki, barəsində vəkil araşdırması aparılan cinayətin kriminalistik xarakteristikası, vəkil tərəfindən araşdırma zamanı müəyyən edilməli olan hallar, vəkil araşdırmasının aparıldığı şərait, vəkil fərziyyələrinin qurulması və yoxlanılması, vəkil

araşdırmasının planlaşdırılması və vəkil araşdırması vasitələrinin taktikası kimi kateqoriyalardan uğurla istifadə etmək mümkündür.

**Nəticə** hissəsində müəllif anlayışları, nəzəri ümumiləşdirmələr, təcrübi tövsiyələr və qanunvericilik təklifləri sistemli şəkildə təqdim edilir.

**Əlavələrdə** təcrübi işçilər arasında keçirilmiş rəy sorğusunun nəticələri, cinayət prosesində vəkil araşdırmasının müəllif konsepsiyası və aprobasiya aktlarının surətləri yer almışdır.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**


1. Понятие адвокатского расследования в уголовном процессе: краткий анализ позиций в теории // Пробелы в Российском законодательстве. Международный юридический журнал. Москва, Издательский дом Юр-Вак, 2012, № 2, с. 183-186.
2. Cinayət prosesində vəkil araşdırması: terminin formalaşma mərhələləri // AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi əsərləri. Bakı, AMEA FSHİ, 2012, № (1)18, s. 281-285.
3. Vəkil araşdırması cinayət-prosessual hüququn tədqiqat obyekti kimi: vəzifələrin müəyyən edilməsi / "Hüquq elminin müasir problemləri" mövzusunda II Respublika elmi-nəzəri konfransın materialları. Bakı, Təknur nəşriyyatı, AMEA FSHİ, 29-30 mart, 2012-ci il, s. 88-91.
4. Развитие идеи об адвокатском расследовании в уголовном процессе через терминологическую призму / "Azərbaycanda hüquqi dövlət quruculuğu və qanunçuluq – 2020: Gələcəyə baxış" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, Təknur nəşriyyatı, AMEA FSHİ, 11-12 iyun 2012-ci il, s. 74-78.
5. Cinayət prosesində vəkil araşdırması zamanı xüsusi biliklərdən istifadənin bəzi məsələləri / "Hüquq elminin müasir problemləri" mövzusunda Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş III Respublika elmi-nəzəri konfransın materialları. Bakı, Təknur nəşriyyatı, AMEA FSHİ, 14-15 mart, 2013-cü il, s. 121-123.

6. "Альтернативная экспертиза" в уголовном процессе: по законодательству Азербайджанской Республики / Актуальные проблемы защиты публичных и частных интересов в Российской Федерации и Азербайджанской Республики. Материалы Международной научно-практической конференции. Москва-Воронеж, Московский психо-социальный университет, 13 декабря 2013 г., с. 109-115.

7. Cinayət prosesində vəkil araşdırmasının nəticələrindən ittihamın (əməlin tövsifinin) dəyişdirilməsi üçün istifadə edilməsi / "Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları" mövzusunda IV Respublika elmi-nəzəri konfransın materialları. Bakı, Təknur nəşriyyatı, AMEA FHİ, 6-7 may 2014-cü il, s. 96-100.

8. Vəkil araşdırmasının hüquqi təbiətinə dair // Nəqliyyat hüququ. Elmi-nəzəri, təcrübi jurnal, Bakı, 2015, № 1 (38), s. 112-122.

9. Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ kontekstində cinayət törətməkdə ittiham olunan şəxslərin minimal prosessual hüquqları haqqında / Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, BDU, 2 cilddə, I cild, 5 may 2015-ci il, s. 125-131.

10. Məhkəməyədək icraatda təqsirləndirilən şəxsin müdafiə hüququnun pozuntuları və onları qiymətləndirmə meyarları / Azərbaycan Respublikası Konstitusiyasının 20 illiyinə həsr edilmiş "Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları" mövzusunda V Respublika elmi-nəzəri konfransın materialları, AMEA FHİ, Bakı, Təknur nəşriyyatı, 7-8 may 2015-ci il, s. 155-160.

11. Cinayət mühakimə icraatında müdafiə funksiyasının məzmunu barədə // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Azərbaycan Respublikasının Prezidenti yanında DİA, 2015, № 3 (51), s. 171-178.

12. Cinayət mühakimə icraatında alternativ ekspertiza haqqında // Qanun, Elmi hüquq jurnalı, Bakı, 2015, № 10 (252), s. 97-105.

13. Опрос лиц адвокатом в уголовном процессе // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri. Humanitar və dəqiq elmlər seriyası. Bakı, 2015, № 41, s. 107-112.

14. Vəkil araşdırması müasir kriminalistika elminin obyektidir // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri. Humanitar və dəqiq elmlər seriyası. Bakı, 2015, № 42, s. 13-17.

15. Уголовно-процессуальное адвокатское расследование в контексте статьи 6 Европейской Конвенции о защите прав человека и основных свобод // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri. Humanitar və dəqiq elmlər seriyası. Bakı, 2016, № 43, s. 63-68.

16. Cinayət prosesində vəkil araşdırmasının vasitələrindən biri kimi "vəkil sorğusu" institutunun milli qanunvericilikdə təsbit edilmiş hüquqi əsasları / Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. 2 clilddə, II cild. BDU, Bakı, 3 iyun 2016-cı il, s. 139-144.

17. Cinayət prosesində müdafiə funksiyası subyektlərinin maraqları ilə digər maraqların qarşılıqlı əlaqəsi // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual problemləri. Elmi əsərlər məcmuəsi. AR ƏN MEM. Bakı, 2016, № 64, s. 36-41.

18. İnsan hüquqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsi kontekstində cinayət prosesində "silahların bərabərliyi" (*equality of arms*) prinsipi / Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Müasir dövrdə Azərbaycan Respublikasında hüquq elminin və təhsilinin əsas inkişaf tendensiyaları" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. 2 cilddə, II cild. BDU, Bakı, 1-2 iyun 2017-ci il, s. 137-141.

19. Avropa İnsan Hüquqları Məhkəməsi təcrübəsində vəkil yardımından istifadə etmək hüququnun məhdudlaşdırılmasına yol verilən bəzi hallar barədə // Qanun. Elmi hüquq jurnalı. Bakı, 2017, № 9 (275), s. 24-30.

20. Cinayət prosesində vəkilin iştirakı ilə bağlı bəzi məsələlər: *Khodorkovskiy and Lebedev v. Russia* işi üzrə AİHM qərarının təhlili kontekstində // Qanun. Elmi hüquq jurnalı. Bakı, 2017, № 10 (276), s. 101-108.

21. Vəkil yardımından istifadə etmək hüququnun İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərində qeydə alınmış bəzi tipik pozuntuları // Qanun. Elmi hüquq jurnalı. Bakı, 2017, № 11 (277), s. 122-134.

22. Müdafiəçinin məcburi iştirakı hallarının sistemi: qanunvericiliyin təkmilləşdirilməsinə dair bəzi mülahizələr // Qanun. Elmi hüquq jurnalı. Bakı, 2017, № 12 (278), s. 110-114.

23. Vəkil kriminalistikası kriminalistikada yeni istiqamət kimi // Polis Akademiyasının elmi xəbərləri, Bakı, 2017, № 3-4, AR DİN Polis Akademiyası, s. 138-146.

24. Cinayət mühakimə icraatında vəkil araşdırması. Monoqrafiya. Bakı: Hüquq Yayın Evi, 2018, 396 s.

25. Vəkil araşdırmasında 3D kompyuter modelləşdirməsindən istifadə edilməsi məsələləri // Qanun. Elmi hüquq jurnalı. Bakı, 2018, № 1 (279), s. 88-93.

26. Vəkil sorğusu cinayət prosesində müdafiəçinin məlumat toplamaq hüququnun realizə vasitəsi kimi // Qanun. Elmi hüquq jurnalı. Bakı, 2018, № 2 (280), s. 92-98.

27. Некоторые вопросы участия адвоката в уголовном процессе в контексте права на справедливое судебное разбирательство // Государство и право. Институт государства и права РАН. Москва, Издательство "Наука", 2018, № 2, с. 42-48.

28. Cinayət prosesində vəkilin nümayəndə və hüquqi varis qismində prosessual fəaliyyəti / "Azərbaycan polisinin tarixi və inkişaf perspektivləri". Beynəlxalq elmi-praktiki konfransın materialları. AR DİN Polis Akademiyası. Bakı, 20 iyun 2018-ci il, s. 211-217.

29. Məhkəmə baxışında ekspertiza və müdafiə funksiyası: təcrübənin təhlili kontekstində // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri, Bakı, 2018, № 66. AR Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzi, s. 69-81.

30. Cinayət prosesində vəkil araşdırması vasitələrinin dairəsinin genişləndirilməsi məsələləri / Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Qloballaşma və Azərbaycan Respublikasında hüquq elminin əsas inkişaf istiqamətləri" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı Dövlət Universiteti, Hüquq fakültəsi. Bakı, 29-30 may 2018-ci il, s. 216-219.

31. İnsan hüquqları üzrə Avropa Konvensiyasının 6-cı maddəsinin 3-cü hissəsi kimlər üçün minimal hüquqlar müəyyən edir? / Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş "Azərbaycan Respublikasının beynəlxalq cəmiyyətə inteqrasiyası və hüquqi dövlət quruculuğunda hüquq elminin müasir inkişafı tendensiyaları" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı Dövlət Universiteti, Hüquq fakültəsi. Bakı, 14 dekabr 2018-ci il, s. 365-367.

32. Cinayət prosesində vəkil araşdırması probleminin tədqiq edilməsi dərəcəsi haqqında // Qanun. Elmi hüquq jurnalı. Bakı, 2018, № 11 (289), s. 88-93.

33. Vəkil araşdırması aparmanın bir hüquq (davranış imkanı) kimi xarakteristikası // Qanun. Elmi hüquq jurnalı. Bakı, 2018, № 12 (290), s. 63-68.

34. Cinayət prosesində vəkillərin iştirakının məcburi olduğu halların dairəsinin genişləndirilməsi haqqında mülahizələr // Audit. Elmi-praktiki jurnal, 2018, cild 22, № 4. Bakı Biznes Universiteti, s. 119-127.

35. Адвокатура в Европе: краткий обзор // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri. Bakı, 2018, № 50, s. 238-243.

36. Ədalətli məhkəmə araşdırması hüququnun cinayət prosesi və vəkillik fəaliyyəti üçün rolu // Polis Akademiyasının elmi xəbərləri, 2018, № 3-4, AR DİN Polis Akademiyası, s. 96-101.

37. Cinayət prosesində vəkilin baxış aparmaq və maddi sübutlar toplamaq hüquqları haqqında // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri, Bakı, 2019, № 67, AR ƏN MEM, s. 38-41.

38. Cinayət prosesində vəkil araşdırması institutuna normativ əsas verən milli və beynəlxalq hüquqi mənbələr // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri. Bakı, 2019, № 51, s. 220-225.

39. Суждения о криминалистической значимости информации, собранной субъектами доказывания / "Development of modern technologies and scientific potential of the world": coll. of scientific papers "ΛΌΓΟΣ" with materials of the International scientific-practical conf., London, July 29, 2019. London: NGO "European Scientific Platform", p. 54-60.

40. Azərbaycan Respublikasında vəkillik fəaliyyəti // Qanun. Elmi hüquq jurnalı. Bakı, 2019, № 10 (300), s. 93-97.

41. Право защищать себя лично или посредством выбранного защитника: прецедентное право Европейского Суда по правам человека // Юридические науки и образование. Баку, 2020, № 62, с. 165-172.

42. Alternativ ekspertiza: kriminalistik və hüquqi məsələlər // Polis Akademiyasının elmi xəbərləri, 2020, № 1 (25), AR DİN Polis Akademiyası, s. 104-110.

43. About the realization mechanism of lawyer investigation in criminal procedure of the Republic of Azerbaijan // Bulletin of the Academy of Advocacy of Ukraine, Kiev, 2020, Volume 17, Issue 2 (45), p. 38-48.

44. Öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq hüququ ədalətli məhkəmə araşdırması hüququnun tərkib hissəsi kimi // Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda elmi-praktiki konfransın materialları. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi. Bakı, 5 may 2021-ci il, s. 115-121.

45. ‘Equality of arms’ in criminal procedure in the context of the right to a fair trial // RUDN Journal of Law, 2021, Volume 25, N. 3, p. 602-621.

Dissertasiyanın müdafiəsi 11. 11. 2022-ci il tarixində, saat 11:00 -da Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Mərdəkan pr. 30.

Dissertasiya işi ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 10 10 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.10.2022

Kağızın formatı: A5 (210 mm x 148 mm)

Həcm: 75 844 işarə

Tiraj: 100